QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

# SƏS



“SƏS” qəzeti mənim üçün ən əziz qəzetdir

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 105 (5825) **13 iyun** 2019-cu il. “Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# “Ölkəmizdə mövcud olan tarixi, dini, mədəni abidələrin bərpası dövlət siyasətində mühüm yerlərdən birini tutur”

*Prezident İlham Əliyev əsaslı şəkildə təmir və bərpa olunan “Yanardağ” qoruğunun açılışında iştirak edib*

Səh 2



5

Novruz Məmmədov: “Azərbaycan Ümumdünya Gömrük Təşkilatı ilə fəal əməkdaşlıq edir”



6

Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin iclası keçirilib

6

Əli Əhmədov: “Heydər Əliyev xalqımızı acı tale yaşamaqdan xilas etdi”



# “Ölkəmizdə mövcud olan tarixi, dini, mədəni abidələrin bərpası dövlət siyasətində mühüm yerlərdən birini tutur”

*Prezident İlham Əliyev əsaslı şəkildə təmir və bərpa olunan “Yanardağ” qoruğunun açılışında iştirak edib*









***İyunun 12-də əsaslı şəkildə təmir və bərpa olunan “Yanardağ” Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğunun açılışı olub. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılışda iştirak ediblər.***

Xatırladaq ki, 2017-ci il dekabrın 29-da Prezident İlham Əliyev “Yanardağ” Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğunda olmuşdu. Dövlətimizin başçısı o zaman buradakı çatışmazlıqları və qeyri-məqbul şəraitin olduğunu qeyd edərək, bunun ölkəmizin ümumi inkişaf səviyyəsinə uyğun gəlmədiyini bildirmişdi. Prezident İlham Əliyev oradaca qoruqdakı şəraitin qısa müddət ərzində müasir səviyyəyə çatdırılması barədə aidiyyəti dövlət qurumlarına ciddi tapşırıq vermişdi.

Dövlətimizin başçısı qoruğun rəmzi açılışını bildirən lenti kəsdi.

Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya görülən işlər barədə məlumat verdi. Bildirildi ki, qoruq yeni konsepsiyaya uyğun olaraq bərpa edilib. Abşeron rayonunun Məmmədli kəndində yerləşən Yanardağ abidəsinin ərazisi Prezident İlham Əliyevin 2007-ci ildə imzaladığı Sərəncamla Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğu elan edilib. Qoruğun fəaliyyəti Nazirlər Kabinetinin 2018-ci il 7 iyun tarixli müvafiq qərarına əsasən Dövlət Turizm Agentliyi tərəfindən tənzimlənir. Dövlətimizin başçısının ötən ilin iyulunda imzaladığı Sərəncama əsasən “Yanardağ” Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğunun müasir standartlara uyğunlaşdırılması və ərazisində yeni turizm infrastrukturunun yaradılması məqsədilə 2018-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin ehtiyat fondundan vəsait ayrılıb. Qoruğun bərpası Dövlət Turizm Agentliyinə həvalə olunub.

Aparılan yenidənqurma işləri çərçivəsində ümumi sahəsi 64,55 hektar olan qoruğun ərazisində 3 tematik zonadan ibarət muzey, açıq hava konsertləri üçün nəzərdə tutulan 500 nəfərlik amfiteatr, sənətkar emalatxanaları və mağazalar, yerli sənətkarlar tərəfindən keramika, şüşə, taxta və parça kimi təbii materiallardan hazırlanan suvenirlərin satışı məntəqəsi, parkinq turistlərin ixtiyarına verilib. 2007-ci ildən qoruq statusuna malik olan Yanardağda, həmçinin ərazidə tapılan, yerli əhali tərəfindən istifadə edilmiş qədim daşlar və sənətkarlıq nümunələrinin, qaval daşının nümayiş etdirildiyi açıq hava muzeyi yaradılıb. Bundan əlavə, qoruq ərazisində yerli gənc rəssamların əsərlərinin nümayiş olunduğu kafe, əyləncə zonası, uşaqlar üçün oyun meydançası fəaliyyət göstərəcək. Fiziki məhdudiyyətli şəxslərin Yanardağ alovunun ətrafına enməsi üçün xüsusi yol çəkilib. Bütövlükdə qoruq ərazisi abadlaşdırılaraq müxtəlif ağaclar əkilib.

Qoruğun tərkibində Yanardağ - əbədiyaşar alov təbii abidəsi ilə yanaşı, digər maddi-mədəni irs nümunələri və təbiət abidələri də var. Bu abidələrə “Qurd yuvası” adlanan ilkin ibtidai icma dövrünə aid mağaralar, çoxəsrlik tarixə malik və qədim sanduqələrlə zəngin iki qəbiristanlıq, müalicəvi kükürdlü su bulaqları, hələ də aktiv fəaliyyətdə olan Qırməki palçıq vulkanı, Əlidaşı piri, Kardaşı iri təbii qaya daşları, Qırməki vadisi, qədim kurqan aiddir.

Ölkəmizdə mövcud olan tarixi, dini, mədəni abidələrin bərpası dövlət siyasətində mühüm yerlərdən birini tutur. Prezident İlham Əliyevin diqqəti sayəsində bu cür obyektlərin təmiri, bərpası, yenidən qurulması istiqamətində çox böyük işlər görülüb. Dövlətimizin başçısının imzaladığı Sərəncama əsasən “Yanardağ” Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğunun müasir standartlara uyğunlaşdırılması və ərazisində yeni turizm infrastrukturunun yaradılması da bu istiqamətdə görülən işlərin ardıcıl xarakter aldığını nümayiş etdirir. Azərbaycanda dövlət səviyyəsində bu istiqamətdə həyata keçirilən işlərə birinci xanım Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu da sanballı töhfələr verir. Bu layihələrin icrası bir neçə mühüm amili birləşdirir. İlk növbədə, bu işlər tarixi, dini, mədəni abidələrə dövlətimiz tərəfindən nə qədər həssaslıqla yanaşıldığını göstərir, Azərbaycanın qədim, tarixi diyar olduğunu bir daha sübut edir. Bundan başqa, turistləri cəlb etmək baxımından da “Yanardağ” Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğunun müasir standartlara uyğunlaşdırılması mühüm rol oynayır. “Yanardağ” qoruğunda görülən işlərlə tanışlıqdan sonra xatirə şəkli çəkdirildi.

# "Azərbaycan ilə Türkiyə arasında qardaşlıq münasibətləri bütün sahələrdə uğurla inkişaf edir"

## *Prezident İlham Əliyev Türkiyə Böyük Millət Məclisinin vitse-spikerinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 12-də Türkiyə Böyük Millət Məclisinin vitse-spikeri Süreyya Sadi Bilgiçin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyi bildirildi, parlamentlərarası əməkdaşlığın əlaqələrimizin möhkəmlənməsi işinə töhfə verdiyi vurğulandı.

Söhbət zamanı ölkələrimizin həyata keçirdiyi birgə qlobal enerji və nəqliyyat layihələrinin önəmi vurğulandı, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli ilə bağlı məsələlər müzakirə edildi, ikitərəfli münasibətlərimizin bundan sonra da möhkəmlənəcəyinə və inkişaf edəcəyinə əminlik bildirildi.

Görüşdə Bakıda keçirilən Regional Təhlükəsizlik və Əməkdaşlıq üzrə Parlament Konfransı və Dialoq və Əməkdaşlıq üzrə Bakı Parlament Platformasının təsis konfransının beynəlxalq parlamentlərarası əməkdaşlığın genişləndirilməsi baxımından önəmi qeyd olundu.

### *Rəsmi xronika*

Prezident İlham Əliyev "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2019-cu il 17 may tarixli 1595-VQD nömrəli Qanununun tətbiqi barədə Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev Astara rayonunun Pensərçay çayında sahilbərkitmə işləri ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev "Kənd təsərrüfatı kooperasiyası haqqında", "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında", "Turizm haqqında" və "Elektrik və istilik stansiyaları haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 3 may tarixli 1582-VQD nömrəli Qanununun tətbiqi haqqında Fərman imzalayıb.

# "Azərbaycan-Almaniya ikitərəfli münasibətləri genişlənir"

## *Prezident İlham Əliyev Almaniya Bundestaqının vitse-prezidentinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 12-də Almaniya Bundestaqının vitse-prezidenti Tomas Oppermannın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. AZƏRTAC xəbər verir ki, Almaniya Bundestaqının vitse-prezidenti Tomas Oppermann paytaxtımızda gördüyü dinamik inkişaf proseslərinin nümayəndə heyəti üzvlərinə dərin təəssürat bağışladığını bildirdi. Qonaq Bakıda keçirilən Regional Təhlükəsizlik və Əməkdaşlıq üzrə Parlament Konfransı və Dialoq və Əməkdaşlıq üzrə Bakı Parlament Platformasının təsis konfransına toxunaraq bu tədbirin parlamentlərarası əməkdaşlığın inkişaf etdirilməsi, parlament diplomatiyasının gücləndirilməsi baxımından önəmini qeyd etdi.

Dövlətimizin başçısı Bakıda keçirilən Regional Təhlükəsizlik və Əməkdaşlıq üzrə Parlament Konfransının və Dialoq və Əməkdaşlıq üzrə Bakı Parlament Platformasının təsis konfransının beynəlxalq əlaqələrin gücləndirilməsində rolunu vurğulayaraq, bu tədbirin fikir mübadiləsinin aparılması, parlamentlərarası əməkdaşlığın genişləndirilməsi işinə töhfə verdiyini bildirdi.

Görüşdə Azərbaycan-Almaniya ikitərəfli münasibətləri, ölkəmizdə gedən iqtisadi inkişaf, o cümlədən kənd təsərrüfatı, turizm, informasiya texnologiyaları və digər sahələrdə mövcud əməkdaşlıq imkanları müzakirə edildi. Söhbət zamanı Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

# "Bakı mühüm beynəlxalq tədbirlərin keçirildiyi məkana çevrilib"

*Prezident İlham Əliyev Ümumdünya Gömrük Təşkilatının Baş katibini qəbul edib*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 12-də Ümumdünya Gömrük Təşkilatının Baş katibi Kunio Mikuriyanı qəbul edib. AZƏRTAC xəbər verir ki, Ümumdünya Gömrük Təşkilatının Baş katibi Kunio Mikuriya Bakıda keçirilən Ümumdünya Gömrük Təşkilatının İnformasiya Texnologiyaları və Texnoloji İnnovasiyalar Konfransı və Sərgisinin yüksək səviyyədə təşkil olunmasına görə dövlətimizin başçısına minnətdarlığını bildirdi və 50-dən artıq ölkənin, eləcə də özəl və ictimai sektorun nümayəndələrinin burada bir araya gəlməsini tədbirlərin önəminin göstəricisi kimi dəyərləndirdi. Qonaq Bakının mühüm beynəlxalq tədbirlərin keçirildiyi məkana çevrildiyini vurğulayaraq, ölkəmizdə göstərilən qonaqpərvərliyi yüksək qiymətləndirdi. Kunio Mikuriya, eyni zamanda, Azərbaycanın Ümumdünya Gömrük Təşkilatının Gömrük Əməkdaşlıq Şurasının sədr müavini, Avropa regionu üzrə rəhbər seçilməsi münasibətilə təbrikləri çatdırdı və qeyd etdi ki, Azərbaycan bu sahədə təkcə gələcəkdə Avropada deyil, daha geniş məkanda mühüm rol oynaya bilər. O, ölkəmizin informasiya texnologiyaları sahəsində uğurlu beynəlxalq əməkdaşlıq həyata keçirdiyini qeyd etdi.

Xoş sözlərə görə minnətdarlığını bildirən dövlətimizin başçısı Bakıda keçirilən Ümumdünya Gömrük Təşkilatının İnformasiya Texnologiyaları və Texnoloji İnnovasiyalar Konfransı və Sərgisinin önəminə toxunaraq, paytaxtımızda mühüm beynəlxalq tədbirlərin keçirilməsinin artıq ənənə xarakteri daşıdığını qeyd etdi və bunun ölkəmizin inkişafına öz töhfəsini verdiyini bildirdi. Prezident İlham Əliyev Azərbaycanda informasiya texnologiyaları sahəsinin sürətlə inkişaf etdiyini, buraya böyük investisiyaların qoyulduğunu və bu sahənin geniş potensiala malik olduğunu vurğuladı. Görüşdə ölkəmizin Ümumdünya Gömrük Təşkilatı ilə uğurlu əməkdaşlıq həyata keçirdiyi bildirildi, əlaqələrimizin perspektivləri barədə fikir mübadiləsi aparıldı.

# Prezident İlham Əliyev Niderland-Azərbaycan Dostluq Qrupunun sədrini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 12-də Niderland Krallığı Senatının sabiq sədri, Avropa Şurası Parlament Assambleyasının sabiq prezidenti, Niderland-Azərbaycan Dostluq Qrupunun sədri Rene Van der Lindeni qəbul edib. AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan Respublikası ilə Niderland Krallığı arasında əlaqələrin inkişafından məmnunluq bildirildi, Rene Van der Lindenin əməkdaşlığımızın genişləndirilməsi işinə verdiyi töhfə yüksək qiymətləndirildi. Söhbət zamanı Azərbaycanda iqtisadiyyatın müxtəlif sahələrində, o cümlədən nəqliyyat sahəsində Niderland şirkətlərinin iştirakının perspektivləri ətrafında fikir mübadiləsi aparıldı, gələcək əməkdaşlıq məsələlərindən danışıldı.

# Gennadi Zyuqanov: "Heydər Əliyevin səyləri nəticəsində Azərbaycanda vətəndaş birliyi və sülh bərqərar oldu"



***Heydər Əliyev 1990-cı illərdə Azərbaycanda vətəndaş həmrəyliyinin və sülhün bərqərar olması üçün əlindən gələni edib və mən onu müasir Azərbaycan dövlətinin banisi hesab edirəm.***

AZƏRTAC xəbər verir ki, bu sözləri Rusiya Kommunist Partiyasının rəhbəri Gennadi Zyuqanov söyləyib. O bildirib ki, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev ilə şəxsən tanış idi. G.Zyuqanov qeyd edib ki, 1990-cı illərdə Azərbaycanın vətəndaş müharibəsi təhlükəsi qarşısında durduğu vaxtlarda Heydər Əliyevin Vətənə dönüşü çox mühüm əhəmiyyət kəsb etmişdi. O, bütün təbəqələrdən olan insanlarla şəxsən görüşürdü. Rus icmasının nümayəndələri ilə görüşündə ölkədə onların təhlükəsizliyinin təmin olunacağına şəxsən zəmanət verməklə, rusdilli əhalinin Azərbaycandan kütləvi şəkildə köçməsinin qarşısını almışdı. Heydər Əliyevin səyləri nəticəsində ölkədə vətəndaş birliyi və sülh bərqərar olmuşdu.

Rusiyalı siyasətçi hazırda Azərbaycan dövlətinin rus dilinə olan qayğısını yüksək qiymətləndirib, Rusiya-Azərbaycan əlaqələrinin bundan sonra da inkişaf etdirilməsinin vacibliyini vurğulayıb.

# Novruz Məmmədov: "Azərbaycan Ümumdünya Gömrük Təşkilatı ilə fəal əməkdaşlıq edir"

## *Bakıda Ümumdünya Gömrük Təşkilatının İnformasiya Texnologiyaları və Texnoloji İnnovasiyalar Konfrans və Sərgisi işə başlayıb*

***İyunun 12-də Bakıda, Heydər Əliyev Mərkəzində Ümumdünya Gömrük Təşkilatının (ÜGT) İnformasiya Texnologiyaları və Texnoloji İnnovasiyalar Konfrans və Sərgisi keçirilir. AZƏRTAC xəbər verir ki, konfransın açılış mərasimində Azərbaycan Respublikasının Baş Naziri Novruz Məmmədov Prezident İlham Əliyevin tədbir iştirakçılarına ünvanladığı məktubu oxudu və açılış nitqi ilə çıxış etdi.***

Ümumdünya Gömrük Təşkilatının Baş katibi Kunio Mikuriya və tədbir iştirakçılarını salamlayan Novruz Məmmədov qeyd edib ki, Azərbaycan beynəlxalq təşkilatlarla, o cümlədən Ümumdünya Gömrük Təşkilatı ilə fəal əməkdaşlıq edir. Belə ki, Ümumdünya Gömrük Təşkilatının Potensialın Gücləndirilməsi üzrə Avropa Regional Ofisinin ölkəmizin paytaxtında yerləşməsi, eləcə də Azərbaycanın Ümumdünya Gömrük Təşkilatının Avropa Regionu üzrə Sədr müavini vəzifəsinə seçilməsi əməkdaşlığımızın yüksək səviyyəsini göstərir.

"Ümumdünya Gömrük Təşkilatının bu mötəbər tədbirinin Bakı şəhərində keçirilməsi təqdirəlayiq haldır. Bakı son illər mədəniyyət, sivilizasiyalararası dialoq, idman, energetika, nəqliyyat və digər müxtəlif sahələrdə mühüm beynəlxalq tədbirlərə ev sahibliyi edir. Buna görə bu konfransın Bakıda keçirilməsi də ölkəmizin mötəbər tədbirlərə ev sahibliyi etməsindəki qazandığı xüsusi etimadın göstəricisidir", - deyə Novruz Məmmədov bildirdi.

Baş Nazir dedi ki, Azərbaycan Respublikası əlverişli coğrafi mövqedə, beynəlxalq nəqliyyat dəhlizlərinin və informasiya magistrallarının kəsişdiyi məkanda yerləşir. Son illər respublikamız bu sahədə öz rəqabətqabiliyyətliliyini yüksəltmək məqsədilə böyük sərmayələr qoyur, regionda və ölkə daxilində irimiqyaslı infrastruktur layihələri həyata keçirir: "2008-ci ildən etibarən Azərbaycanda kosmik sənayenin yaradılması və telekommunikasiya peyklərinin orbitə çıxarılması ilə bağlı işlərə başlanılıb. Artıq Azərbaycan müxtəlif təyinatlı 3 peykini orbitə çıxarıb və dünyanın kosmik ölkələr klubunun üzvüdür. 2013-cü ilin Azərbaycanda "İnformasiya-kommunikasiya texnologiyaları ili" elan edilməsi bu sahənin inkişafına ən yüksək səviyyədə göstərilən diqqətin əyani təsdiqidir".

"Dövlət orqanlarında, o cümlədən gömrük sahəsində müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqi ilə idarəçiliyin təkmilləşdirilməsi Azərbaycan üçün əsas vəzifələrdən biridir. Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən dövlət proqramları və islahatlar nəticəsində ölkəmizin ümumdünya elektron məkanına sürətli inteqrasiyası təmin edilmiş, elektron hökumətin, rəqəmsal iqtisadiyyatın, elektron kommersiya və data-mərkəzlərinin, texnoloji parkların, biznes inkubatorların yaradılması, informasiya təhlükəsizliyinin təmini istiqamətində mühüm addımlar atılıb. Hörmətli qonaqlar, sizi Azərbaycanda bir daha salamlayır və konfransın işinə uğurlar arzulayıram", - deyə Novruz Məmmədov vurğuladı.

Dövlət Gömrük Komitəsinin sədri Səfər Mehdiyev tədbirin vacibliyini diqqətə çatdıraraq vurğuladı ki, elektron xidmətlər sırasında elektron gömrük Azərbaycanda ön sıralardadır. Bu istiqamətdə ciddi islahatlar aparılıb, şəffaflığın təmin edilməsi baxımından vacib işlər görülüb. Sahibkar-məmur münasibətlərinin minimuma endirilməsi, gömrük prosedurlarının sadələşdirilməsi baxımından da Gömrük Komitəsi mühüm nailiyyətlər əldə edib.

S.Mehdiyevin sözlərinə görə, Ümumdünya Gömrük Təşkilatının İnformasiya Texnologiyaları və Texnoloji İnnovasiyalar Konfrans və Sərgisi bu təşkilata üzv dövlətlərin gömrük xidmətlərinin informasiya texnologiyaları barədə fikir mübadiləsi aparması, bu sahədə qabaqcıl texnologiyaların tətbiqi və gömrük xidmətlərinin təcrübələrinin bölüşməsi baxımından əhəmiyyət kəsb edir.









Tədbirdə Koreya Gömrük Xidməti İnformasiya və Beynəlxalq Məsələlər İdarəsinin Baş direktoru Taeil Kang və ÜGT-nin Baş katibi Kunio Mikuriyanın çıxışları dinlənilib.

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin ev sahibliyi, Ümumdünya Gömrük Təşkilatının təşkilatçılığı və Koreya Gömrük Xidmətinin dəstəyi ilə keçirilən tədbirə 91 ölkənin gömrük və sərhəd xidməti orqanları, informasiya texnologiyaları sektoru, biznes, hökumət və ticarət təşkilatlarının, eləcə də elmi dairələrin 500-ə qədər nümayəndəsi qatılıb.

ÜGT-nin İnformasiya Texnologiyaları və Texnoloji İnnovasiyalar Konfrans və Sərgisi iyunun 14-dək davam edəcək. Konfrans çərçivəsində keçiriləcək plenar sessiyalarda texnologiyaya əsaslanan qabaqcıl ticarət üzrə strategiyaların yenidən qurulması, gələcəyin yaşıl nəqliyyat və logistikasına sərhəd idarəçiliyinin münasibəti, maneəsiz sərhəd üçün smart hava limanları, daha təhlükəsiz və dayanıqlı ticarət üçün innovativ həllər, gələcəyə yönəlmiş nəqliyyat sahəsi mövzuları müzakirə olunacaq.

Qeyd edək ki, İnformasiya Texnologiyaları, Texnoloji İnnovasiyalar Konfransı və Sərgisi ÜGT-nin ən mötəbər tədbirlərindən biri hesab olunur və bu tədbirin ölkəmizdə keçirilməsi Prezident İlham Əliyevin gömrük sistemində həyata keçirdiyi mütərəqqi islahatlar hesabına Azərbaycan gömrüyünün bütün sahələrdə, xüsusilə informasiya texnologiyalarının tətbiqi istiqamətində əldə etdiyi uğurların nəticəsidir.

# Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin iclası keçirilib

***İyunun 12-də Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin iclası keçirilmişdir. İclasda Yeni Azərbaycan Partiyasının Gənclər Birliyinin rayon və şəhər təşkilatlarının konfransları barədə, eləcə də partiyanın İcra Katibliyi və rayon təşkilatlarının aparatında çalışan məsul işçilərin attestasiyaları barədə məlumat dinlənilmişdir.***

Qeyd edilmişdir ki, Yeni Azərbaycan Partiyasının gənclər cəmiyyətin fəal təbəqəsi kimi özlərini təsdiqləmişdir. Partiya sıralarında birləşmiş gənclərimiz yüksək vətəndaş mövqeyi, ictimai-siyasi proseslərdə fəallıq və yüksək vətənpərvərlik nümayiş etdirirlər. YAP gənclərinin xarakterini vurğulayarkən vətənpərvərlik, fəallıq, ictimai-siyasi proseslərdə iştirakçılıq xüsusi qeyd olunmalıdır. Eyni zamanda, Heydər Əliyev ideyalarına sədaqət, dövlətə və dövlətçiliyə bağlılıq, Prezident İlham Əliyevin siyasətini birmənalı şəkildə dəstəkləmək gənclərimizin əsas xarakterik keyfiyyətləri sırasındadır.

Nəzərə çatdırılmışdır ki, YAP-ın cəmiyyətdə rolunun artması fonunda partiyanın gənclərinin də rolunun artması sevindirici haldır. Partiyanın sıralarında gənclərin sayının artması isə özlüyündə YAP-ın təkcə bu günü ilə deyil, gələcəyi ilə bağlı da böyük perspektivlərə malik olduğunu ifadə edir. Getdikcə daha çox sayda Azərbaycanın fəal, vətənpərvər gəncləri öz siyasi talelərini Yeni Azərbaycan Partiyası ilə bağlayır, Prezident İlham Əliyevin siyasətinə münasibətlərini bu formada ifadə edirlər.

İclasda qeyd olunmuşdur ki, Yeni Azərbaycan Partiyasının Gənclər Birliyinin rayon və şəhər təşkilatlarının konfransları yüksək səviyyədə təşkil edilmişdir. Konfransların ümumi mənzərəsi bir daha təsdiq edir ki, gənclər Prezident İlham Əliyevin davam etdirdiyi siyasi kursu və bu gün ölkə başçısının rəhbərliyi ilə həyata keçirilən islahatları birmənalı olaraq dəstəkləyir, bu işdə öz bilik və bacarıqlarını töhvə etməyə hər an hazırdırlar.

İdarə Heyətinin iclasında YAP-ın İcra Katibliyi, o cümlədən partiyanın rayon və şəhər təşkilatlarının aparat işçilərinin attestasiyasının nəticələri yüksək qiymətləndirilmişdir.

İclasda həmçinin, bir sıra cari məsələlər müzakirə edilmiş və müvafiq qərar qəbul edilmişdir.

# Əli Əhmədov: “Heydər Əliyev xalqımızı acı tale yaşamaqdan xilas etdi”



SİA Baş nazirin müavini, Yeni Azərbaycan Partiyasının Sədr müavini-İcra katibi Əli Əhmədovun “Heydər Əliyev xalqımızı acı tale yaşamaqdan xilas etdi” adlı məqaləsini təqdim edir:

“AXC-Müsavat cütlüyünün cəmi 13 ay davam edən hakimiyyəti Azərbaycanı dövlət müstəqilliyini itirmək, ölkəni bölünmək, xalqı isə müsibətlər yaşamaq taleyi ilə üzbəüz qoydu. Ölkə xaos, anarxiya, dərəbəylik, özbaşınalıq girdabında boğulurdu. Sözün həqiqi mənasında yaşamaq uğrunda mübarizə gedirdi. Çörək növbələri 1993-cü il Azərbaycanda həyatın ən acı mənzərələrindən birinə çevrilmişdi. İnflyasiya 1000 faizlə ölçülürdü. Milli valyuta sözün əsl mənasında dəyərsiz kağız parçası olmuşdu. İqtisadiyyat bütünlüklə çökmüşdü. Vaxtilə minlərlə insanın çalışdığı fabrik və zavodlar sökülüb dəzgahları metal kimi dəyər-dəyməzinə xaricə satılırdı. İş o yerə çatmışdı ki, dəmir yol relsləri, tramvay xətləri, vaxtilə Azərbaycana böyük valyutalar gətirən şərab çənləri daşınıb xaricdə “əridilirdi”. Digər heç bir sahədə bacarıq göstərə bilməyən o zamankı hakimiyyətə cəmi bir il kifayət etdi ki, ölkəni bütünlüklə talan etsin.” Bu fikirlər Baş nazirin müavini, Yeni Azərbaycan Partiyasının Sədr müavini - İcra katibi Əli Əhmədovun rəsmi facebook səhifəsində yayımladığı “Heydər Əliyev xalqımızı acı tale yaşamaqdan xilas etdi” sərlövhəli məqaləsində yer almışdır.

Əli Əhmədov Milli Qurtuluş Günü münasibəti ilə qələmə aldığı məqalədə 1992-1993-cü illərin acı reallıqlarını təhlil edərək qeyd edir: “Ermənistanla müharibə vəziyyətində olan ölkədə nizami ordu yaradılmamışdı. Ayrı-ayrı qruplara, maraqlara, hətta siyasi partiyalara xidmət edən silahlı dəstələr ordunu əvəz edir, hərbi vəzifələrdən daha çox siyasi vəzifələrə qulluq göstərirdi. Silahlı güvvələr hakimiyyət savaşına cəlb olunmuşdu. Ermənilər isə bundan istifadə edib Azərbaycanın torpaqlarını zəbt etməkdə davam edirdi. Dövlətin və mərkəzi hakimiyyətin ifrat zəifliyindən istifadə edən məkrli qüvvələr separatçı hərəkata rəvac vermişdilər. Cənubda Talış-Muğan respublikası elan edilmiş, şimalda “Sadval” hərəkatı baş qaldırmışdı. Azərbaycanın parçalanması demək olar ki, artıq baş vermişdi. AXC-Müsavat hakimiyyəti bütünlükdə iflasa uğrayıb taqətini itirmişdi. Azərbaycanın acı tale gözləyirdi. Dövləti idarə edən siyasətçilərin görməli və qiymətləndirməli olduğu təhlükələri onlar deyil, müdrik Azərbaycan xalqı görür və qiymətləndirirdi. Xalq hökmünü vermişdi: Hakimiyyət dəyişməli, siyasətdə naşıları siyasətin nəhəngi əvəz etməlidir. Beləliklə, xalq Heydər Əliyevi hakimiyyətə dəvət etdi. Azərbaycanın fəlakətdən, xalqın müsibətdən qurtulması naminə”.

Ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışını Azərbaycanın müasir tarixinin yeni mərhələsi kimi dəyərləndirən Baş nazirin müavini daha sonra bildirir: “Heydər Əliyevin qayıdışı ilə Azərbaycanın müasir tarixinin yeni mərhələsi başladı. Xaos, anarxiya aradan qaldırıldı, sabitlik təmin edildi, inflyasiya və iqtisadi tənəzzül cilovlandı, islahatlar həyata keçirildi, Azərbaycana firavanlıq gətirən neft strategiyası reallaşdı, nizami ordu yaradıldı, erməni təcavüzü dayandırıldı, separatizmin kökü kəsildi, Azərbaycanın bütövlüyü qorunub saxlanıldı.

Çörək növbələri, 1000 faizlik inflyasiya, separatizm, AXC-Müsavat hakimiyyətinin digər “şedevrləri” indiki gənclərə yəqin ki, fantaziya kimi gəlir. Ancaq bütün bunlar yaşadığımız tarixin qaranlıq bir parçasıdır. Daha dəqiq ifadə etsək, bizə yaşadılan bir tarix, bir müsibətdir. Əgər xalq vaxtında o zamankı hakimiyyəti devirməsəydi və siyasət nəhəngi Heydər Əliyev hakimiyyətə gəlməsəydi, Azərbaycan başqa bir tale yaşamağa məhkum olacaqdı. Yalnız Heydər Əliyevin sayəsində, onun müdrikliyi və 2003-cü ildən Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasət sayəsində Azərbaycan güclü, qüdrətli, firavan, təhlükəsiz dövlət və ölkə kimi tanınır və qəbul olunur. Ən başlıcası isə insanlar rahat yaşayır, gələcəyə ümidlə baxır. Ona görə də xalq 1993-cü ilin iyun ayında Heydər Əliyevin qayıdışını Milli Qurtuluş günü kimi qeyd edir.

Azərbaycan xalqı hər il böyük coşqu ilə Milli Qurtuluş bayramını qeyd etdiyi halda, 26-27 il bundan əvvəl ölkəni dəhşətli böhrana salaraq insanlara müsibətlər yaşadanların qalıqlarının indiki hakimiyyəti və bütünlükdə reallıqlarımızı yalan-böhtan əsasında tənqid etmələri istər-istəməz acı təbəssüm yaradır. Uğursuzların özlərini qəhrəman kimi təqdim etməsi tarixin ən gülməli paradokslarındandır. Lakin tarixi o tarixi yaşamış insanlara unutdurmaq mümkün deyil. Milli Qurtuluş məfkurəsi Azərbaycanın qarşısında geniş perspektivlər açmışdır. Ölkəmizin uzun illər bu yolla gedəcəyinə və daha böyük uğurlar qazanacağına dərindən inanıram. Milli Qurtuluş Günü bayramınız mübarək olsun!”

# Hikmət Hacıyev Vaşinqtonda Atlantik Şurada çıxış edib

***ABŞ-ın paytaxtı Vaşinqton şəhərində fəaliyyət göstərən nüfuzlu düşüncə mərkəzlərindən biri olan Atlantik Şurada Azərbaycanın xarici siyasətinə həsr olunmuş tədbir keçirilib. SİA-nın verdiyi məlumata görə, tədbirdə ABŞ dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisinin müavini Corc Kent ABŞ-Azərbaycan münasibətləri ilə bağlı çıxış edib, daha sonra Azərbaycan Respublikasının Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev ilə Atlantik Şuranın Qlobal Enerji Mərkəzinin təsisçi sədri və ABŞ-ın Azərbaycanda keçmiş səfiri Riçard Morninqstarla söhbəti baş tutub.***



Tədbirdə əsasən Vaşinqtonda akkreditə olunan diplomatik korpusun nümayəndələri və regionla bağlı araşdırma aparan analitiklər iştirak edib. Tədbirin ictimaiyyət üçün açıq olmasından istifadə edərək tədbirdə, həmçinin xeyli sayda erməni lobbiçilərinin nümayəndələri də olub.

İlk əvvəl C.Kent çıxış edərək Azərbaycan-ABŞ əlaqələrinin strateji əhəmiyyəti barədə danışıb. O, Cənubi Qafqazın əhəmiyyəti barədə danışarkən Azərbaycanı vacib tərəfdaş kimi xarakterizə edib və iki ölkə arasında təhlükəsizlik, enerji və iqtisadi inkişafın təmini sahələrində uğurla davam edən əməkdaşlıq barədə danışıb. ABŞ rəsmisi son dövrlər iki dövlətin rəsmilərinin səfərlərinin və dialoqunun artması-nı münasibətlərin inkişafının göstəricisi kimi vurğulayıb. C.Kent Əfqanıstanda NATO-nun sülhməramlı əməliyyatlarına göstərdiyi əhəmiyyətli dəstəyə görə Azərbaycana ABŞ hökumətinin təşəkkürünü çatdırıb. Həmçinin o, ABŞ-ın Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinin tərəfdarı olduğunu, ABŞ-ın ATƏT-in Minsk Qrupu çərçivəsində vasitəçilik səylərinə sadiq qaldığını bildirıb və münaqişənin tezliklə həllinin regionda sülh və firavanlığın təmininə imkan yaradacağını vurğulayıb.

Daha sonra ABŞ-ın Azərbaycanda keçmiş səfiri R.Morninqstarın moderatorluğu ilə Hikmət Hacıyev ilə söhbət baş tutub. H.Hacıyev Azərbaycan xarici siyasətinin əsasları, onun strateji mövqeyi, region dövlətləri ilə münasibətləri, həyata keçirdiyi və regionun xəritəsini dəyişən enerji və nəqliyyat layihələri, həmçinin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli prosesinin hazırkı mərhələsi barədə danışıb. Prezident Administrasiyasının rəsmisi Azərbaycan rəhbərliyinin göstərdiyi müdrik və təmkinli yanaşmasına baxmayaraq Paşinyan hakimiyyətinin münaqişənin həllində ciddi mövqe nümayiş etdirmədiyini, əksinə bu vaxta kimi vəziyyəti gərginləşdirən bəyanat və addımlarla yadda qaldığını qeyd edib.

Bu xüsusda H.Hacıyev Ermənistanın təmas xəttində Azərbaycan hərbi qulluqçularının ölümü ilə nəticələnən son təxribatları barədə məlumat verib və bu addımların məhz danışıqlar prosesini pozmağa yönəldiyini qeyd edib. H.Hacıyev Ermənistanın hazırda yaşadığı iqtisadi fəsadları sadalayaraq münaqişənin həllinin ilk növbədə Ermənistan üçün faydalar gətirəcəyini, Ermənistanın bu iflasdan çıxmasının yeganə yolunun münaqişənin həllindən keçdiyini, təəssüf ki, hələlik Ermənistanın və erməni diasporasının bunu anlamadığını bildirib. Həmçinin H.Hacıyev Ermənistanın sülh danışıqlarında iştirak etdiyi dövrdə paralel olaraq işğal olunmuş ərazilərdə qanunsuz fəaliyyətləri davam etdirdiyini qeyd edib və beynəlxalq ictimaiyyətin bu məqama daha çox diqqət yönəltməsinin vacib olduğunu vurğulayıb. Sonda H.Hacıyev auditoriyanın suallarını cavablandırıb. Bu mərhələdə tədbirdə kütləvi şəkildə iştirak edən (tədbir ictimaiyyətə açıq olub) erməni lobbiçiləri tərəfindən Azərbaycan nümayəndəsinə təxribatçı suallar ünvanlanıb və H.Hacıyev bu suallara Ermənistanın işğalçı və beynəlxalq hüquq normalarına zidd olan siyasətini ifşa etməklə cavab verib.

## Hulusi Akar: "Türkiyə, Azərbaycan və Gürcüstanın hərbi sahədə möhkəm əməkdaşlıq əlaqələri var"

Türkiyə, Azərbaycan və Gürcüstanın hərbi sahədə möhkəm əməkdaşlıq əlaqələri var. Qarşıdakı dövrdə bu əlaqələr müdafiə və təhlükəsizlik sahəsi ilə məhdudlaşmayacaq, digər sahələri də əhatə edəcək.



AZƏRTAC xəbər verir ki, bunu iyunun 12-də Qəbələ şəhərində Azərbaycan, Türkiyə və Gürcüstan Müdafiə nazirlərinin üçtərəfli görüşündən sonra keçirilən brifinqdə Türkiyə Respublikasının Milli Müdafiə naziri Hulusi Akar deyib. Göstərilən qonaqpərvərliyə görə Azərbaycan tərəfinə minnətdarlıq edən H.Akar qeyd edib ki, üç ölkənin birgə çalışması böyük önəm kəsb edir. Müdafiə sahəsində imzalanan əməkdaşlıq memorandumunun çox yaxında ölkələrimiz üçün faydalarını görəcəyik. Bu gün keçirilən görüşdə tərəflərin mövcud iş birliyi və əməkdaşlıq potensialının perspektivlərini müzakirə etdiklərini deyən H.Akar bildirib ki, Türkiyə, Azərbaycan və Gürcüstanın birgə əməkdaşlığı çox önəmlidir.

## Kitabxanada Milli Qurtuluş Günü qeyd olunub



İyunun 12-də Mirzə Fətəli Axundzadə adına Azərbaycan Milli Kitabxanasında 15 iyun - Milli Qurtuluş Gününə həsr olunmuş tədbir keçirilib. AZƏRTAC xəbər verir ki, tədbir Mədəniyyət Nazirliyi, Yeni Azərbaycan Partiyasının Səbail rayon təşkilatı və Milli Kitabxananın birgə təşkilatçılığı ilə reallaşıb. Əvvəlcə dövlət himni səsləndirilib, ulu öndər Heydər Əliyev haqqında videoçarx təqdim edilib. Tədbiri Milli Kitabxananın direktoru Kərim Tahirov açaraq bu əlamətdar gün barədə məlumat verib. Qeyd edilib ki, 1993-cü ildə Azərbaycanın xilası yolunda fədakarlıq nümunəsi göstərən ulu öndər Heydər Əliyev xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə gələrək ölkəmizi çətin vəziyyətdən çıxarmağa müvəffəq olub. Azərbaycanda vətəndaş qarşıdurmasına birdəfəlik son qoyulub, ölkəmiz xaosdan, siyasi çəkişmələrdən, sosial-iqtisadi böhrandan xilas edilib. Respublikanın qarşısında duran problemlər həll olunub, əmin-amanlıq, siyasi sabitlik yaranıb. İctimai-siyasi, sosial-iqtisadi, elmi və mədəni həyatda əsaslı dönüş başlanıb, xalqımızın bütövlüyü, həmrəyliyi, milli birliyi təmin edilib.

Mədəniyyət nazirinin birinci müavini Vaqif Əliyev çıxışında bu yaxınlarda Yeni Azərbaycan Partiyası və Mədəniyyət Nazirliyi arasında imzalanan "Azərbaycanın dövlətçilik ənənələrinin yaşadılması məqsədilə vətənpərvərlik və mədəni dəyərlərə hörmət hisslərinin gücləndirilməsinə dair 2019-2020-ci illər üzrə birgə Fəaliyyət Planı"nı xatırladaraq bildirib ki, Fəaliyyət Planına uyğun olaraq bir sıra siyasi, mədəni tədbirlərin keçirilməsi nəzərdə tutulub. Qeyd edib ki, bugünkü tədbir də Fəaliyyət Planının tərkib hissəsidir.

YAP Səbail rayon təşkilatının sədri, Milli Məclisin deputatı Şəmsəddin Hacıyev 1993-cü il iyunun 15-dən ötən dövrdə Azərbaycanın keçdiyi inkişaf yolundan, əldə olunan uğurlardan danışıb. O, 1993-cü ilin iyununda ümummilli lider Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışını şərtləndirən obyektiv və subyektiv faktorları və həmin dövrdə baş verən mürəkkəb prosesləri xronoloji ardıcıllıqla təhlil edib. Ş.Hacıyev yaranmış ağır vəziyyətdə xalqın təkidli tələbi ilə Ulu Öndərin ikinci dəfə hakimiyyətə gəlməsinin Azərbaycanın həm siyasi, həm iqtisadi, həm də sosial-mədəni qurtuluşunun əsasını qoyduğunu bildirib.

Tədbirdə çıxış edən Milli Məclisin deputatı Aydın Mirzəzadə, YAP Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə, "Səs" Media Qrupunun rəhbəri Bəhruz Quliyev dövlətçilik tariximizə şərəfli və qürurverici səhifə kimi daxil olmuş 15 iyun - Milli Qurtuluş Gününün tarixi əhəmiyyətindən danışıblar. Sonda Milli Kitabxananın əməkdaşlarına YAP-ın üzvlük vəsiqələri təqdim olunub.

# Naxçıvan şəhərində "Gənclər Yaşayış Kompleksi"nin təməli qoyulub



***Ümummilli liderimiz Heydər Əliyevin müəllifi olduğu inkişaf strategiyasında gənclərə qayğı əsas məsələlər sırasındadır. Bu gün ölkəmizdə, eləcə də muxtar respublikada sağlam gənc nəslin yetişdirilməsi ilə yanaşı, onların sosial-məişət şəraitinin yaxşılaşdırılması da diqqətdə saxlanılır.***





Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, iyunun 12-də - Milli Qurtuluş Günü ərəfəsində Naxçıvan şəhərində yeni "Gənclər Yaşayış Kompleksi"nin təməlatması olub.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov ümummilli liderimiz Heydər Əliyevin "Azərbaycan gəncləri Azərbaycanın gələcəyidir", fikrini xatırladaraq deyib: Bu gün ölkəmizdə ulu öndər Heydər Əliyev siyasi xəttinin uğurla davam etdirilməsinin nəticəsidir ki, gənclərimiz sabitlik şəraitində yaşayır, hərtərəfli təhsil alırlar. Muxtar respublikada da gənclər qayğı ilə əhatə olunub. Görülən işlərin davamı olaraq bu gün Naxçıvan şəhərində üçüncü gənclər şəhərciyi yaşayış kompleksinin təməli qoyulur. Gənclər üçün yeni yaşayış komplekslərinin tikilməsi həm onların mənzil problemlərinin həllinə, həm də ailələrin uzunömürlü olmasına xidmət edir. Çünki mənzil hər bir ailənin həyatında mühüm yer tutur. Bu gün muxtar respublikamızda 456 mindən artıq əhali yaşayır ki, onların da 140 mini və yaxud 30 faizdən çoxu gənclərdir. Ona görə də gənclərin mənzil şəraitinin yaxşılaşdırılmasına xüsusi diqqət yetirilir.

Ali Məclisin Sədri deyib: 14-29 yaş arasındakı gənclərimizin təhsil alması və peşə öyrənməsi, mənzil şəraitlərinin yaxşılaşdırılması ölkəmizin gələcəyinə xidmət edən məsələdir. Dövlətin dəstəyi ilə Naxçıvan şəhərində yeni yaşayış kompleksinin salınmasında məqsəd də ondan ibarətdir ki, gənclərin mənzil problemi həll edilsin, onlar rahat yaşasınlar. Yaşayış kompleksinin tikilməsi həm də burada yeni iş yerlərinin açılması deməkdir. "Gənclər Yaşayış Kompleksi"nin tikilməsinə həm dövlət, həm də sahibkar tərəfindən vəsait sərf olunur. Ona görə də tikinti işləri keyfiyyətlə aparılmalı, gənclərimiz müasir mənzillərlə təmin olunmalıdırlar.

Ali Məclisin Sədri mənzillərin keyfiyyətlə tikilib başa çatdırılacağına əminliyini bildirib, inşaatçılara uğurlar arzulayıb.

"Cahan Holdinq" Şirkətlər İttifaqının direktoru Vüqar Abbasov "Gənclər Yaşayış Kompleksinin" layihəsi üzrə görüləcək işlər barədə Ali Məclisin Sədrinə məlumat verib. Bildirilib ki, ərazidə ikisi 7, ikisi 5 mərtəbəli olmaqla 4 yaşayış binası inşa olunacaqdır. Yeddimərtəbəli yaşayış binalarından biri 26, digəri 28, beşmərtəbəli yaşayış binalarının isə hər biri 40 mənzillidir. Ümumilikdə, 4 yaşayış binasında 134 mənzil istifadəyə veriləcəkdir. Binaların zirzəmisində xidmət sahələri yaradılacaq, həyətdə istirahət parkı istifadəyə veriləcəkdir.

Ali Məclisin Sədri kompleksdə gənclərin, eləcə də ailələrin tələbatına uyğun xidmət sahələrinin yaradılması, mənzillərin ipoteka yolu ilə satışa çıxarılması və gənclərin məlumatlandırılması barədə tapşırıqlar verib.

Sonra Ali Məclisin Sədri beton qarışığı bünövrəyə töküb, yaşayış kompleksinin təməli qoyulub.

# Heydər Əliyevin xilaskarlıq missiyası: QURTULUŞDAN İNTİBAHA DOĞRU



Bəhruz Quliyev,
"SƏS" qəzetinin baş redaktoru

***Tariximizə Milli Qurtuluş Günü kimi daxil olmuş 15 iyun sadəcə təqvim bayramı deyil, böyük ictimai, siyasi və tarixi əhəmiyyətə malik bir gündür. 1993-cü il iyunun 9-da Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin xalqın təkidi və tələbi ilə Bakıya qayıtması, ölkənin xaos, vətəndaş qarşıdurması, dövlət müstəqilliyinin itirilməsi təhlükəsindən xilas etməsi çoxəsrlik tariximizə taleyüklü möhtəşəm siyasi hadisə kimi daxil oldu. Böyük tarixi missiya həyata keçirən ulu öndər Heydər Əliyev 1993-cü il iyunun 15-də Ali Məclisin sədri seçildi və bu gün Azərbaycan xalqının tarixinə Milli Qurtuluş günü kimi düşdü.***

Qurtuluş xalqımızın Heydər Əliyevin tarixi missiyasına verdiyi düzgün, ədalətli, obyektiv qiyməti əks etdirir. Çünki, xalqın Heydər Əliyevə olan möhkəm və sarsılmaz inamı, dəstəyi, Heydər Əliyev şəxsiyyətinin böyüklüyü, qüdrəti, əzəməti və Heydər Əliyevin xalqına, millətinə, Vətəninə olan sönsüz, təmənnasız, əzəmətli sevgisi Onun tarixi missiyasının həyata keçirilməsinin üç güclü faktoru qismində çıxış edir.

Qeyd edək ki, 1991-ci il oktyabrın 18-də Azərbaycan XX əsrdə ikinci dəfə dövlət müstəqilliyini elan etdi. Təəssüf ki, müstəqilliyin ilk illərində dövlətin idarəçilik sükanı arxasında xalqın qüvvələrini bir yerə cəmləşdirə biləcək qüdrətli bir lider yox idi. Həmin dövrdə Azərbaycan ərazilərinin davamlı işğalı, getdikcə gərginləşən siyasi vəziyyət, əhalinin günbəgün ağırlaşan sosial durumu ölkəni bu bəlalardan xilas edə biləcək, xalqı öz arxasınca aparmağa qadir liderə ehtiyac olduğunu şərtləndirirdi. Cəmiyyətin bütün təbəqələri əmin idi ki, yenicə müstəqillik qazanmış ölkəni düşmüş olduğu ağır və dözülməz vəziyyətdən çıxarmağa qadir yeganə şəxsiyyət məhz Heydər Əliyevdir. Əslində, bu, bütün xalqın ürəyinin səsi idi. Xalqımız Heydər Əliyevin ətrafında sıx birləşməklə öz gələcək taleyini özü həll etmək niyyətində idi.

1993-cü ilin ortalarına doğru isə hakimiyyət böhranı getdikcə daha kəskin xarakter alırdı. Bu dövrdə hakimiyyətdə olan qüvvələr öz səriştəsiz əməlləri ilə Azərbaycanın müstəqilliyi üçün təhlükə yaratdılar. AXC-Müsavat hakimiyyətinin cinayətkar səriştəsizliyi, dövlət idarəçiliyi sisteminin olmaması, 1993-sü ilin əvvəllərindən ölkədə fəaliyyət göstərən silahlı dəstələrin yol verdikləri başıpozuq fəaliyyət, Azərbaycanın daxilində qardaş qırğını və vətəndaş müharibəsinə zəmin yaranması, ayrı-ayrı bölgələrdə isə separatçılıq və parçalanma meyllərinin baş qaldırması Azərbaycanı bir dövlət kimi varlığına son qoyulması ilə üzləşdirmişdi.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev müstəqilliyimizin bu mərhələsini belə xarakterizə edirdi: "Azərbaycan böyük təhlükə qarşısında idi. Çünki Azərbaycanın müstəqil yaşamasının əleyhinə olan həm daxildəki qüvvələr güclü idi, həm də Azərbaycan kimi böyük coğrafi-strateji əhəmiyyətə, zəngin təbii sərvətlərə malik olan ölkənin tam müstəqil olması başqa ölkələrdə bəzi dairələri qane etmirdi. Ermənistanın Azərbaycana etdiyi təcavüz və bunun nəticəsində Azərbaycanın zəifləməsi, məğlubiyyətə uğraması, ikinci tərəfdən də daxildə hakimiyyət çəkişməsi 1992-ci ilin iyun ayında hakimiyyətə gəlmiş qüvvələri bir ildən sonra hakimiyyətdən saldı, xalq özü saldı".

Həmin dövrdə AXC-Müsavat cütlüyünün hakimiyyəti ölkəmiz üçün ciddi problemlər və risklər yaratmışdı. Belə ki, 1993-cü ildə respublikada artıq həyatın bütün sahələrini böhran bürümüşdü. Səriştəsiz rəhbərlik nəticəsində müstəqilliyimiz süquta uğramaq təhlükəsi ilə üzləşmişdi. Buna səbəb isə küçədən dövlət kürsüsünə əyləşənlərin idarçilik qabiliyyətlərinin olmaması idi. Məsələn, parlamentin sədri kiçik elmi işçi idi, 11 il ərzində kiçik bir dissertasiyanı müdafiə edə bilməmişdi. Baş nazir əvvəllər kiçik mövsümi ticarətlə məşğul olmuşdu. Belə bir təcrübədən sonra əvvəl dövlət katibi kimi ciddi siyasi post, daha sonra baş nazir postu onun miqyası üçün olduqca ağır idi.

Adi fizika müəllimi olmuş müdafiə naziri Şuşanın itirilməsində, ordunun iflic vəziyyətinə salınmasında xüsusi rol oynamış, ordu siyasi proseslərdə müstəqil tərəf kimi çıxış edərək parlament sədri və prezidentə meydan oxuyurmuş. Daxili işlər naziri canlı efirdə bir müxalifət nümayəndəsini döymüş, buna görə heç bir məsuliyyət daşımamışdır. Üstəlik, vəzifədən çıxandan sonra dərhal müxalifətə keçmiş - iyunun 4-də, Gəncədə iğtişaşlar başlayan günə Bakıda AXC hakimiyyətinə qarşı mitinqlər təyin etmişdi.

Daxili işlər naziri və parlament sədri prezidentlik iddialarını açıq şəkildə dilə gətirir, nəzarətlərində olan media qurululşlarında prezident əleyhinə sərt kampaniya aparırdılar. Əli Kərimlinin nəzarətində olan media qurumları baş nazir və spikeri ələ salırdı, prezidentin özünə yaxın AXC İcraiyyə Komitəsi rəsmi bəyanatla nazirləri, parlament sədrini dövlətə və ya hakimiyyətə xəyanətdə ittiham edirdi.

Kriminal düşüncəli adamlar dövlət başına vəzifəyə gətirildi, ölkədə mənəviyyatsızlıq hökm sürürdü. Daxili işlər naziri insanları qanunsuz həbs edir, məhkəməsiz 700 nəfər məhbusu azadlığa buraxıb, silahlandırmışdı. Heç bir hüquqi əsası olmadan yaradılmış "ekologiya polisi", "bələdiyyə polisi" kimi qeyri-qanuni qurumlar faktiki olaraq daxili işlər nazirinin varlanması naminə dövlət səviyyəsində reketliklə məşğul idilər. Həmçinin, xarici işlər naziri Fizika İnstitutunun heç bir diplomatik təcrübəsi olmayan, heç bir xarici dil bilməyən kiçik elmi işçisi idi və belə mühüm vəzifəyə təyin edilmişdi.Yeni müstəqil ölkənin diplomatik korpusu da özü kimi təcrübəsiz, texniki sahələrdə çalışan kiçik elmi işçilərdən formalaşdırmışdırmışdı.

Digər tərəfdən, dövlət əmlakının açıq-aşkar mənimsənilməsi, qeyri-qanuni yolla xaricə satılması, bir sözlə dövlət əmlakının talan edilməsi adı hala çevrilmişdi. Ölkədə özəlləşdirilmə prosesi getmədiyi halda 3 mindən çox xidməti maşını məmurlar şəxsi istifadə üçün mənimsəmişdilər. Ehtiyat mənzil fondu AXC hakimiyyətinin ilk aylarında satılıb mənimsənilmiş, bir çox hallarda yeni "bəylər" tətəfindən məşuqələrinə ərməğan edilmişdi.

Bütün bunlarla yanaşı hakimiyyətə gələndən sonra AXC üzvləri dərhal bir-biri ilə mübarizəyə başlamışdılar. Hakimiyyət daxilində Müsavat, Yurd, "Boz qurd", "boz pencəklilər" və s. kiçik qruplaşmalar yaranaraq bir-birinə qarşı və birincilik uğrunda mübarizə gedirdi. Məhz, belə daxili didişmələr eyni zamanda, xalq tərəfindən onlara olan inamsızlıq nəticəsində cəmi 1 il hakimiyyətdə qala bilmişlər.

Bu baxımdan, bu qüvvələrin hakimiyyətə gəlməsi ilə Azərbaycanın yeni tarixinin ən faciəli dövrü başlanmışdı. Prezident ölkədə real vəziyyətdən, cəbhədəki durumdan bixəbər idi. Ali Baş komandan olduğunu unutmuş bu şəxs nazirlərin fəaliyyətinə nəzarət etməyi lazım bilmirdi.

Sonradan özlərinin də etiraf etdiyi kimi Ə.Elçibəyin reytinqinin ən yaxşı vaxtında ona etimad göstəricisi 33 faizi ötməmişdi. Beləliklə, bir AXC-Müsavat cütlüyünün bir illik hakimiyyəti ölkədə anarxiya, xaos, özbaşınalığın tüğyan etməsi, iqtisadiyyatın çökməsi, əhalinin sosial durumunun son dərəcə ağırlaşması, torpaqların işğalı ilə nəticələndi.

Belə bir gərgin və böhranlı vəziyyətdə xalq ümidini böyük oğlu Heydər Əliyevə bağlamışdı. Məhz, 1992-ci ilin oktyabrında bir qrup Azərbaycan ziyalısı Ona müraciət edərək Yeni Azərbaycan Partiyasının yaradılmasını təklif etmişdilər. İyun hadisələri zamanı isə hətta o zamankı hakimiyyət də Heydər Əliyevi Bakıya dəvət etməyə məcbur olmuş, xalqın təkidli tələbi və iqtidarın çoxsaylı xahişi ilə Heydər Əliyev Bakıya qayıtmışdı.

Heydər Əliyevin xilaskarlıq missiyası Azərbaycanı məhv olmaqdan, parçalanmaqdan xilas etdi. Asayiş və qayda-qanun bərqərar edildi, soyğunçuluğa, vətəndaşların əmlakının qəsb olunmasına son qoyuldu. Nizami ordu yaradıldı, Qarabağ müharibəsində atəşkəs əldə edildi, münaqişəsinin dinc yolla nizama salınmasına dair danışıqlara başlandı. İdarəetmə sistemi formalaşdırıldı, insanlara öz dövlətinə inamı qaytarıldı, neft müqavilələri imzalandı, Azərbaycanın iqtisadi dirçəlişinin əsası qoyuldu. Qanunsuz silahlı qruplaşmaların dövlət çevrilişləri cəhdlərinə son verildi, ilk parlament seçkiləri keçirildi və referendum yolu ilə Konstitusiya qəbul edildi. Həmçinin, Azərbaycanın beynəlxalq əlaqələri formalaşdırıldı, ölkənin dünya birliyinə inteqrasiyası prosesi başlandı.

Ümummilli liderimiz Heydər Əliyevin Azərbaycan dövlətinin rəhbərliyinə qayıtması, onu məhv olmaqdan və dövlətçiliyin itirilməsindən xilas etməsi, güclü, dinamik inkişaf edən və milli varlığımızı yaşadan ölkəyə çevirməsi, təkcə bugünkü deyil, ümumən gələcək nəsillər, Azərbaycan amalını qəlbində yaşadan bütün insanlar üçün epoxal əhəmiyyət kəsb edən dövlətçilik təcrübəsi olmuşdu. Məhz, bu səbəbdən də 15 iyun müasir Azərbaycan dövlətinin tarixinə Milli Qurtuluş günü kimi daxil olmuşdu. Sonralar ölkənin ali qanunvericilik orqanı xalqın ən müxtəlif təbəqələrinin arzu və istəklərini nəzərə alaraq Heydər Əliyevin hakimiyyətə qayıtdığı 15 iyun gününü əbədiləşdirmişdi. 15 iyun - Qurtuluş günü Azərbaycan Milli Məclisinin qərarı ilə 1997-ci ilin 27 iyununda rəsmiləşdirildi. Milli Məclisin həmin tarixi qərarında deyilir: "Azərbaycan xalqının azadlığının, müstəqil dövlətçiliyinin müqəddəratının həll edildiyi ən ağır günlərdə Heydər Əliyevin öz xalqının iradəsinə tabe olaraq ölkə rəhbərliyinə qayıtması, əslində, onun məhz Azərbaycan Respublikasını, Azərbaycan xalqını, milli azadlıq hərəkatında qazanılmış tarixi nailiyyətləri məhv olmaqdan xilas etmək kimi çox çətin və şərəfli bir missiyanı könüllü olaraq öz üzərinə götürməsi idi. Bu, sözün əsl mənasında, "ömrümün qalan hissəsini də xalqıma qurban verirəm" deyib meydana atılan böyük ürəkli Vətən oğlunun öz xalqı, öz Vətəni qarşısında misilsiz fədakarlığı idi".

Həmin vaxtdan bu günə qədər Azərbaycan xalqı 15 iyun gününü əziz bayram kimi qeyd edir və Azərbaycan dövlətinin qurtuluşunun başlanğıcı kimi dəyərləndirir.

Bu gün Azərbaycanda müstəqil dövlətçilik ənənələri formalaşdırılıb və şübhəsiz ki, bu mühüm nailiyyətin əldə edilməsində ümummilli lider Heydər Əliyevin fədakar xidmətlərinin müstəsna əhəmiyyəti var. Onun siyasi xadim kimi yürütdüyü siyasətin başlıca qayəsi Azərbaycanı hər bir vətəndaşının təhlükəsizliyini qoruya biləcək qədər qüdrətli dövlətə çevirmək olub. Bu gün Azərbaycan Prezidenti cənab İlham Əliyev ümummilli liderimizin siyasi xəttinə sadiq qalaraq müstəqil ölkəmizi inamla gələcəyə doğru aparır. Artıq neçə ildir ki, Azərbaycan Respublikasının milli qurtuluş yolu davam edir. Bu yol Heydər Əliyevin müəyyənləşdirdiyi yoldur. Bu yolla gedən Azərbaycan durmadan yüksəlir, inkişaf edir, uğurlar qazanır. Heydər Əliyevin özü vaxtilə müdrikcəsinə demişdi: "Heç bir qüvvə Azərbaycanın müstəqilliyini əlindən ala bilməz. Bundan sonra heç bir qüvvə Azərbaycan dövlətçiliyini məhv edə bilməz".

Bu inam, bu qətiyyət Milli Qurtuluş gününün mənası və verdiyi ibrət dərsləridir. Bu onu göstərir ki, nə qədər Azərbaycan var, Heydər Əliyev də olacaq, onun ideya və əməlləri yaşayacaq, bizi daim doğru yolla, irəliyə aparacaqdır.

# Fransızlarla ermənilərin "dostluq xartiyaları" ləğv olunur!

## Fransa məhkəmələri erməni işğalçılarını məyus etməkdə davam edəcəklər



***Bu günlərdə Fransanın Qrenobl administrativ məhkəməsi separatçı "DQR"lə bağlı "dostluq haqqında xartiyaların" daha dördünün ləğvi ilə bağlı qərar qəbul edib və bu faktoru istər işğalçı Ermənistana, istərsə də separatçı rejimə kifayət qədər ağır zərbə kimi qiymətləndirmək olar. Daha dəqiq desək, işğal altında olan Dağlıq Qarabağdakı mövcud erməni yaşayış məntəqələri ilə Fransanın regionları və kommunaları arasında imzalanmış "Dostluq xartiyası" qərarının ləğvi sübut edir ki, ədalətə qarşı nə qədər basqılar olsa belə, o sonda həmin basqıları ram edərək, önə çıxır.***

### Bu qərarlar Fransanın Serji-Pontuaz inzibati tribunalı tərəfindən qəbul edilmiş birinci qərarın məntiqi davamı kimi qiymətləndirilə bilər

Bu barədə "armennews.com" saytı da yazır və Fransa məhkəmələrinin bəlli qərarlarından ciddi təlaşın keçirildiyi, necə deyərlər, göz önündədir.

Bir müddət öncə isə, Fransanın Vuaz departamentinin Arnuvill şəhər məkhəməsinin Dağlıq Qarabağın işğal altındakı Xocavənd rayonu ilə "Dostluq xartiyası" haqqında ləğv qərarını verməsi nəticə etibarı ilə ədalətsizlik, beynəlxalq hüquqa və konvensiyalara zidd olan buzların əriməsi təsirini bağışlamağa başlatdı ki, ümumilikdə, verilən hər bir müvafiq qərarlar 29 may 2019-cu il tarixində Fransanın Serji-Pontuaz inzibati tribunalı tərəfindən qəbul edilmiş birinci qərarın məntiqi davamı kimi qiymətləndirilə bilər.

### Fransa kimi müəyyən tarixə malik olan Avropa ölkəsi gec, ya da tez sözügedən ədalətli qərarlara imza atmalı idi

Bu reallıq, həm də belə qənaətə gəlməyə zəmin yaradır ki, artıq nə işğalçı Ermənistan rejimi, nə də separatçı "DQR"in təmsilçiləri uzun illərə söykənən Fransa çətiri altında özlərini rahat hiss edə bilməzlər. Çünki faktlar ortadadır və həmin faktların əsasında bir sıra nüfuzlu beynəlxalq təşkilatlar Azərbaycan ərazilərinin işğala məruz qalması barədə qətnamələr çıxarıblar. Əgər müvafiq qətnamələrə, konvensiyalara etinasız yanaşmalar olarsa, bu zaman həmin ölkələrin ciddi siyasi elitaya malik olması da şübhə altına düşə bilər. O cümlədən, Fransa kimi müəyyən tarixə malik olan Avropa ölkəsi gec, ya tez sözügedən ədalətli qərarlara imza atmalı idi.

### Ləğv olunmuş qərarlar, eyni zamanda, Fransanın öz nüfuzuna xələl gətirməmək istəyində olduğunu nümayiş etdirməkdədir

Onu da nəzərə almaq lazımdır ki, Fransa Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində fəaliyyət göstərən Minsk Qrupunun həmsədr ölkələrindəndir və etiraf etməliyik ki, bu ölkə zaman-zaman ikili standartlardan çıxış edib, daha çox erməni tərəfinin mövqeyinə dəstəklər göstərib. Bu mənada, daha əvvəllər imzalanmış sözügedən xartiyaları göstərə bilərik. İndi isə, həmin xartiyalar ard-arda ləğv olunur və ləğv olunmuş qərarlar, eyni zamanda, Fransanın öz nüfuzuna xələl gətirməmək istəyində olduğunu nümayiş etdirməkdədir. Yəqin ki, qoca qitənin aparıcı dövlətlərindən olan Fransanın digər inzibati məhkəmələri də, müvafiq addımları atmaqla, erməni işğalçılarını məyus etməkdə davam edəcəklər.

*Rövşən NURƏDDİNOĞLU*

# "Azərbaycan gec-tez öz torpaqlarını azad edəcək"

***"Azərbaycan torpaqlarını işğal edən Ermənistan daima qorxmalıdır. Çünki Azərbaycan gec-tez öz torpaqlarını azad edəcək. Bu baxımdan, Türkiyə və Azərbaycanın birgə hərbi təlimindən ermənilərin indi təşviş keçirməsi də yeni bir məsələ deyil. Aprel hadisələri isə ermənilərin qorxu hissini təzələdi. Praktiki şəkildə göstərdi ki, Azərbaycan ordusu öz torpaqlarını azad etməkdə israrlıdır". Bunu SİA-ya açıqlamasında ehtiyatda polkovnik, hərbi ekspert Şair Ramaldanov deyib.***



Azərbaycan-Türkiyə hərbi əməkdaşlığına gəlincə, hərbi ekspertin sözlərinə görə, bizim nəinki hərbi, digər sahələrdə də münasibətlərimiz yüksək səviyyədədir: "Bu ölkənin hərbiçilərinin Azərbaycan Silahlı Qüvvələrinin formalaşmasında özünəməxsus yeri var. Bilirsiniz ki, müstəqilliyin ilk illərində kadr çatışmazlığı zamanı Türkiyə Silahlı Qüvvələrinin mütəxəssisləri, zabitləri Azərbaycanın kadr potensialının hazırlanmasında yaxından iştirak ediblər. Biz Türkiyə hərbiçiləri ilə mütəmadi olaraq əməkdaşlıq edirik, birgə təlimlər keçirik. Keçən il keçirilən Azərbaycan-Türkiyə-Gürcüstan üçtərəfli hərbi təlimini də qeyd edə bilərik. Azərbaycan-Türkiyə hərbi təlimləri isə demək olar ki, ildə bir neçə dəfə keçirilir. Təbii ki, bu təlimlər nəzərdə tutulan plana uyğun şəkildə həyata keçirilir. Burada qarşıya qoyulan məqsəd isə həm Azərbaycan, həm də Türkiyə silahlı qüvvələrinin təlimlərdə iştirak edən heyətinin bilik və təcrübəsinin artırılmasına istiqamətlənib. Təlimdə iştirak edən birləşmələrinin qərargahları tərəfindən birgə planların hazırlanması, hərbiçilər arasında koordinasiyanın təmin edilməsi, eləcə də onların döyüş tapşırıqları ilə bağlı vərdişlərə yiyələnməsi və digər məsələlər diqqət mərkəzində olur".

Ş.Ramaldanov əlavə etdi ki, bu gün Türkiyə güclü silahlı qüvvələrə sahibdir və NATO üzvüdür: "Əgər bu gün Azərbaycan qardaş ölkənin silahlı qüvvələri ilə müştərək fəaliyyət göstərirsə, birgə təlimlər keçirsə, bu, o deməkdir ki, mövcud durum silahlı qüvvələrimizin dünyanın ən güclü orduları ilə birgə hərbi təlimlər keçirməsinə imkan verir. Bu, həm də Azərbaycan Silahlı Qüvvələrinin inkişafının göstəricisidir. Eyni zamanda qeyd edim ki, Azərbaycan və Türkiyənin birgə hərbi təlimləri gələcəkdə hər hansı birgə fəaliyyət üçün bir platformadır".

# Bundestaqın vitse-prezidenti: Azərbaycan enerjinin şaxələndirilməsində Avropanın mühüm tərəfdaşıdır



Energetika Nazirliyində Almaniya Bundestaqının vitse-prezidenti Tomas Oppermanın başçılıq etdiyi nümayəndə heyəti ilə görüş keçirilib. Nazirlikdən AZƏRTAC-a bildirilib ki, görüşdə iki ölkə arasında münasibətlər, enerji əməkdaşlığı və regional məsələlər ətrafında müzakirələr aparılıb. Energetika naziri Pərviz Şahbazov Azərbaycan-Almaniya əməkdaşlığının yüksək səviyyədə olduğunu qeyd edib və bu əməkdaşlığın bir çox sahələr üzrə, xüsusilə də enerji sektorunda daha da inkişafı üçün mövcud imkanları diqqətə çatdırıb.

Görüşdə enerji sektorunda alman şirkətlərinin iştirakı ilə həyata keçirilən layihələrdən, eləcə də Azərbaycan qazının Avropaya nəqlini nəzərdə tutan Cənub Qaz Dəhlizinin icra vəziyyəti, enerji təhlükəsizliyi və enerji şaxələndirilməsi layihəsi kimi rolundan danışılıb. T.Opperman Azərbaycanın beynəlxalq aləmdə mövqeyinə dair fikirlərini bölüşüb. Bildirib ki, enerji şaxələndirilməsində Azərbaycan Avropanın mühüm tərəfdaşıdır.

Söhbət zamanı parlamentlərarası əməkdaşlığın ikitərəfli əlaqələrin inkişafında mühüm əhəmiyyət daşıdığı bildirilib, Azərbaycan və Almaniya arasında digər sahələrdə əməkdaşlığın genişləndirilməsinə dair fikir mübadiləsi aparılıb.

# Axtarışda olan 13 nəfər tutulub

Ötən gün törədilmiş 22 cinayətin üstü respublikanın daxili işlər orqanları tərəfindən "isti izlər"lə açılıb. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, əvvəlki dövrlərdən bağlı qalmış 11 cinayətin açılması təmin olunub. Axtarışda olduğuna görə ümumilikdə 13 nəfər, o cümlədən borclu şəxs qismində axtarışda olan 4 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilib.

Respublikanın avtomobil yollarında 2 ağır yol-nəqliyyat hadisəsi baş verib, nəticədə iki nəfər ölüb. Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 13 fakt müəyyən edilib. Cinayət törətməkdə şübhəli bilinən 23 nəfər saxlanılıb.

# Binəqədi rayonunda "Qurtuluşdan tərəqqiyə" adlı tədbir keçirilib





YAP Binəqədi rayon təşkilatının inzibati binasında Binəqədi rayon icra hakimiyyəti, YAP Binəqədi rayon təşkilatı, Bakı Şəhər Təhsil İdarəsi və Binəqədi Rayon Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə 15 İyun Milli Qurtuluş Günü və Heydər Əliyev dərslərinin yekunu ilə bağlı "Qurtuluşdan tərəqqiyə" adlı tədbir keçirilib. Tədbirdən öncə, iştirakçılar Ulu Öndər Heydər Əliyevin YAP Binəqədi rayon təşkilatının inzibati binası önündə ucaldılmış abidəsini ziyarət edərək, önünə gül dəstələri düzmüş və əziz xatirəsini ehtiramla yad etmişlər. Tədbirin rəsmi hissəsinə başlamazdan öncə, Heydər Əliyev dərslərinin silsilə tədbirlərindən bəhs edən videoçarx nümayiş etdirilib.

Tədbiri giriş nitqi ilə açan YAP Binəqədi rayon təşkilatının sədri Ramiz Göyüşov Heydər Əliyev dəsrlərinin Ümummilli Lider Heydər Əliyevin zəngin irsinin araşdırılmasına, öyrənilməsinə və gələcək nəsillərə çatdırılmasına həsr olunduğunu bildirib. R.Göyüşovun sözlərinə görə, Heydər Əliyev dərsləri artıq altıncı ildir ki, keçirilir: "Bu il dərslərin formatında bir qədər dəyişikliklər edilərək, mühazirələrə ictimai-siyasi xadimlərin, eləcə də, idarəetmədə təcrübəsi olan şəxslər cəlb edilib.

Tədbirdə Bakı şəhər Təhsil İdarəsinin müdir müavini, filologiya üzrə elmlər doktoru, professor Hüseyn Əsgərov geniş məruzə ilə çıxış edərək bildirib ki, Ümummilli Lider Heydər Əliyev böyük idarəçilik və siyasi məktəbdir: "Ulu Öndər təkcə Azərbaycanın deyil, türk dünyasının, Şərqin və bütün dünyanın sayılıb-seçilən dahilərindən biridir. Tədbirdə Binəqədi rayonu 284 nömrəli tam orta ümumtəhsil məktəbinin direktoru Nizami Novruzov, Binəqədi rayonu 99 nömrəli tam orta ümumtəhsil məktəbinin tarix müəllimi, Heydər Əliyev dərslərinin məruzəçisi Ruslan Məhiyev yüksək siyasi iradəsi olan Dahi Şəxsiyyət Heydər Əliyevin Azərbaycan dövləti və xalqı qarşısındakı misilsiz xidmətlərindən danışıb.

Binəqədi rayonu 314 nömrəli tam orta ümumtəhsil məktəbinin11-ci sinif şagirdi, Heydər Əliyev dərslərinin iştirakçısı Səbinə Nəsibli də çıxışında Ulu Öndərə həsr etdiyi esse yazısını təqdim edib.

Tədbirdə çıxış edən Binəqədi rayon icra hakimiyyəti başçısının müavini Vüsar İsmayılov müstəqil və müasir Azərbaycanın qurucusu və memarı, dahi Şəxsiyyət Heydər Əliyevin Azərbaycan dövləti və xalqı qarşısında misilsiz xidmətləri olduğunu bildirib.

V.İsmayılov qeyd edib ki, Ulu Öndərin zəngin və çoxşaxəli irsi daim araşdırılmalı, öyrənilməli və gənclərə çatdırılmalıdır.

Tədbirdə il ərzində Heydər Əliyev dərslərində iştirak edən ən fəal 32 şagird və bir məruzəçi müəllimin mükafatlandırılması mərasimi keçirilib. Tədbir bədii hissə ilə yekunlaşıb.

**ZÜMRÜD BAYRAMOVA**

# YAP Nərimanov rayon təşkilatı Gənclər Birliyinin üzvləri Milli Məclisdə olublar

**15 İyun Milli Qurtuluş Günü münasibətilə Yeni Azərbaycan Partiyası Nərimanov rayon təşkilatı Gənclər Birliyinin üzvləri Milli Məclisdə olublar. Əvvəlcə, Milli Məclisin foyesində Ümummilli Lider Heydər Əliyevin abidəsi ziyarət olunaraq abidənin önünə gül dəstələri düzülüb.**



Sonra Milli Məclisin Gənclər və idman komitəsinin üzvləri ilə YAP Nərimanov rayon təşkilatı Gənclər Birliyinin fəallarının görüşü keçirilib. Gənclər həmçinin parlamentin iclas zalı ilə tanış olublar. Milli Məclisin Gənclər və idman komitəsinin sədri Ülvi Quliyev gəncləri salamlayıb, gənclərin 15 İyun Milli Qurtuluş Günü ərəfəsində Azərbaycan parlamentinin fəaliyyəti ilə tanış olmalarının əhəmiyyətini vurğulayıb və parlamentin fəaliyyəti haqqında məlumat verib. O bildirib ki, parlamentin binası hələ sovetlər dönəmində Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə tikilərək istifadəyə verilib. Azərbaycan parlamentinin keçdiyi yolun əhəmiyyətindən danışan Ü. Quliyev 1995-ci ildən indiyə kimi parlamentin 2000-dən çox qanun və qərar qəbul etdiyini gənclərin diqqətinə çatdırıb.

Daha sonra YAP Nərimanov rayon təşkilatı Gənclər Birliyinin üzvləri parlamentdə komitə iclaslarının keçirildiyi əsas zal ilə tanış olublar.

Sonra "Milli Qurtuluş Gününün gənclərə verdiyi töhvələr" mövzusunda dəyirmi masa keçirilib. Milli Məclisin Gənclər və İdman komitəsinin sədri Ülvi Quliyev çıxış edərək 1993-cü ilin iyununda Ümummilli Lider Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışının önəmindən, ölkənin vətəndaş müharibəsi və parçalanma təhlükəsindən xilas edilməsindən, vətəndaş cəmiyyətinin formalaşması istiqamətində həyata keçirilən uğurlu islahatlardan bəhs edib. Komitə sədri bildirib ki, 1993-cu ilin 15 iyunundan indiyə kimi Azərbaycanda gənclər sahəsində mühüm uğurlar əldə olunub. Bu uğurların əsas səbəbi dövlət gənclər siyasətinin təməlinin sağlam zəmində formalaşdırılması olub. Ulu Öndər Heydər Əliyevin müəllifi olduğu dövlət gənclər siyasəti bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilir. Dövlətimizin başçısının bu sahəyə yüksək diqqət və qayğısı nəticəsində ölkəmizdə gənclərin inkişafı ilə bağlı mühüm dövlət proqramları və strategiyaları qəbul olunub, Gənclər mərkəzləri, Gənclər evləri, Olimpiya İdman kompleksləri istifadəyə verilib.

Tədbirdə həmçinin, Milli Məclisin Gənclər və İdman Komitəsinin üzvləri Şahin İsmayılov, Eldəniz Səlimov, Elşən Musayev və Cavid Osmanov Milli Qurtuluş Gününün Azərbaycan tarixindəki əhəmiyyətindən, Ümummilli Lider Heydər Əliyevin Azərbaycanın inkişaf və tərəqqisi yolundakı əvəzsiz xidmətlərindən danışıblar. Dəyirmi masada həmçinin gənclər çıxış edib, onları maraqlandıran suallar cavablandırılıb.



# "Qurtuluş məfkurəsi Azərbaycanın uğurlu inkişafının ideya əsası kimi"



## *YAP Nizami rayon təşkilatı və Nəsimi rayon icra hakimiyyəti ilə birgə 15 İyun Milli Qurtuluş Gününü qeyd edib*

***Dünən YAP Nizami rayon təşkilatı və Nəsimi rayon icra hakimiyyəti ilə birgə 15 İyun Milli Qurtuluş Günü münasibətilə "Qurtuluş məfkurəsi Azərbaycanın uğurlu inkişafının ideya əsası kimi" adlı tədbir keçirib. İlk öncə, Ulu Öndər Heydər Əliyevin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən sonra 15 İyun Milli Qurtuluş Gününə həsr edilmiş filmə baxış keçirilib.***

Tədbirdə çıxış edən YAP Nizami rayon təşkilatının sədri, Milli Məclisin deputatı Sədaqət Vəliyeva Azərbaycan xalqının tarixinə Milli Qurtuluş Günü kimi daxil olan 1993-cü il iyunun 15-dən 26 il keçdiyini xatırladıb, bu illərin ölkəmizin və xalqımızın həyatında böyük dəyişikliklərlə yadda qaldığını vurğulayıb.

YAP Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə Ulu Öndər Heydər Əliyevin xilaskarlıq missiyasından danışıb. O, Milli Qurtuluş Gününü Azərbaycanın müstəqillik tarixinin ən şərəfli səhifələrindən biri kimi dəyərləndirərək, qeyd edib ki, bu günün mənası təkcə ölkənin xaos və anarxiyadan xilas edilməsi, xarici və daxili düşmənlərin Azərbaycanı parçalamaq, müstəqil dövlətimizi məhv etmək planlarının puça çıxarılması ilə məhdudlaşmır. Bu tarixi gün, eyni zamanda, Azərbaycanın dünya birliyinə qovuşması, dünya dövlətləri tərəfindən tanınması, beynəlxalq aləmdə layiqli yerini tutması ilə səciyyələnir.

Nizami rayon icra hakimiyyəti başçısının müavini Gülnaz İsrafilova çıxışında vurğulayıb ki, Ümummilli Lider Heydər Əliyevin yenidən hakimiyyətə gəlməsi xalqın nicatına yol açıb, Azərbaycan parçalanmaq və vətəndaş müharibəsi təhlükəsindən qurtularaq güclü bir dövlətə çevrilib.

Tədbirdə çıxış edən digər natiqlər Milli Qurtuluş Gününün tarixi əhəmiyyətindən, Ulu Öndər Heydər Əliyevin Vətəni və xalqı qarşısında əvəzolunmaz xidmətlərindən danışıblar, Prezident İlham Əliyevin Ümummilli Liderin siyasi xəttini layiqincə davam etdirdiyini diqqətə çatdırıblar.

**R.KAMALQIZI**



# “Nəsimi İli”nə həsr olunan növbəti müsabiqə

*YAP İmişli rayon təşkilatında böyük mütəfəkkir İmadəddin Nəsiminin 650 illiyi münasibətilə şeir müsabiqəsi keçirilib*

Dünən YAP İmişli rayon təşkilatında Azərbaycanın böyük şairi və mütəfəkkiri İmadəddin Nəsiminin 650 illiyi münasibətilə rayon ümumtəhsil məktəbliləri arasında şer müsabiqəsi keçirilib.

Tədbiri giriş sözü ilə YAP İmişli rayon təşkilatının sədri Səfa Ağayev açaraq, bildirdi ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə görkəmli Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin 650 illik yubileyi ilə əlaqədar 2019-cu il “ Nəsimi İli “ elan edilibdir. Bu, şairə verilən dəyərin, hörmət və ehtiramın, mədəniyyətə, şeirə, sənətə, onların inkişafına verilən böyük diqqətin nəticəsidir.

S.Ağayev qeyd edib ki, Azərbaycan poetik dilinin inkişafına böyük təsiri olan, əvəzsiz şair İmadəddin Nəsimi öz yaradıcılığı ilə mübarizliyi və sülhü təbliğ edib: “Söz sənətinin son dərəcə qiymətli incilərini meydana gətirmiş bu filosof-şair yalnız Azərbaycanın deyil, eləcə də, türk ədəbiyyatının təkmilləşməsinə töhfələr verib. İmadəddin Nəsimi Azərbaycan xalqının ümumbəşər mədəniyyətinə bəxş etdiyi qüdrətli söz ustalarındandır. Nəsimi irsinin öyrənilməsi və təbliği, xatirəsinin əbədiləşdirilməsi istiqamətində mühüm addımlar, məhz Ümummilli Lider Heydər Əliyev tərəfindən atılıb. Ümummilli Liderin təşəbbüsü ilə Nəsiminin 600 illik yubileyi UNESCO-nun tədbirlər siyahısına daxil edilib, 1973-cü ildə beynəlxalq səviyyədə qeyd olunub və ölkəmizdə ilk dəfə Nəsiminin abidəsi ucaldılıb”.

Tədbirdə çıxış edən Rayon Təhsil Şöbəsinin müdiri Ələmdar Quliyev və digər natiqlər də çıxışlarında İmadəddin Nəsiminin öz əsərlərində dövrün mütərəqqi fikirlərini tərənnüm etdirdiyini, böyük Nizaminin Şərq ədəbiyyatına gətirdiyi qabaqcıl ideyaları davam və inkişaf etdirərək, öz amalı uğrunda yorulmadan mübarizə aparan və bu yolda mərdliklə ölümə gedən fədakar bir sənətkar olduğunu qeyd ediblər.

Sonda müsabiqə iştirakçılarının qaliblərі Fəxri-Fərman və qiymətli hədiyyələrlə mükafatlandırılıblar.

**Rəfiqə HÜSEYNOVA**

## Kamal Abdulla: “Azərbaycanın təhsil sistemində aparılan islahatlar ölkənin bütün sahələrdə inkişafına təsir edir”



Azərbaycanın təhsil sistemində aparılan islahatlar ölkənin bütün sahələrdə inkişafına təsir edir. Son illərdə ölkəmizdə təhsilin normativ hüquqi bazası təkmilləşdirilib, maddi-texniki təminatının yaxşılaşdırılması istiqamətində Azərbaycan Respublikası Prezidentinin sərəncamları əsasında geniş tədbirlər həyata keçirilib. Şəhər və rayon məktəblərinin çoxunda tikinti, əsaslı təmir-bərpa və yenidənqurma işləri aparılıb. Təhsil müəssisələrində informasiya-kommunikasiya texnologiyalarının tətbiqi xeyli dərəcədə genişlənib.

Bu fikri AZƏRTAC-a müsahibəsində Azərbaycan Dillər Universitetinin rektoru, akademik Kamal Abdulla deyib.

O bildirib ki, təhsilin inkişafına dövlət tərəfindən göstərilən xüsusi diqqət nəticəsində cəmiyyətdə müəllimliyə olan həvəs artıb, müəllim peşəsini seçən abituriyentlərin sayı kəskin şəkildə yüksəlib. Bu, Prezidentin təhsilin inkişafına göstərdiyi qayğıdan qaynaqlanır. Təhsilə olan həssas münasibət son nəticədə müəllim peşəsinin nüfuzunun yüksəlməsində özünü göstərir. Həmçinin ümumtəhsil məktəblərinin təmir-tikinti işləri son illərdə davamlı olaraq həyata keçirilir. Bu işlər ümumilikdə məktəblilərin təhsil şəraitinin yaxşılaşdırılmasına, tədrisin keyfiyyətinin yüksəldilməsinə xidmət edir. “Son bir neçə gündə Prezident İlham Əliyev tərəfindən imzalanan “Azərbaycan Respublikasında təhsil infrastrukturunun inkişafı ilə əlaqədar tədbirlər haqqında”, “Bakı şəhərində və onun qəsəbələrində təhsil müəssisələrinin tikintisi və təmiri ilə bağlı tədbirlər haqqında”, “Azərbaycan Respublikasında təhsil müəssisələrinin qazlaşdırılması haqqında” sərəncamlar təhsil müəssisələrinin maddi-texniki bazasının daha da yaxşılaşdırılmasına imkan yaradacaq”, - deyə Kamal Abdulla qeyd edib.

# Gələcək həyatımızın böyük başlanğıcı - Milli Qurtuluş Günü



YAP Cəbrayıl rayon təşkilatında 15 İyun Milli Qurtuluş Günü münasibətilə tədbir keçirilib. Tədbiri giriş sözü ilə açan YAP Cəbrayıl rayon təşkilatının sədri Arif Fərzəliyev Ümummilli Lider, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, dünya şöhrətli siyasi xadim Heydər Əliyevin 1993-cü il iyunun 15-də yenidən hakimiyyətə qayıtmasının xalqımızın çoxəsrlik tarixinə taleyüklü möhtəşəm siyasi hadisə kimi daxil olduğunu bildirib. Azərbaycan xalqının taleyində böyük əhəmiyyət kəsb edən bu tarixi günün gələcək həyatımızın böyük başlanğıcının əsasının qoyulmasında müstəsna rol oynadığını diqqətə çatdırıb.



A.Fərzəliyev vurğulayıb ki, Ümummilli Lider Heydər Əliyevin 1993-cü ildə Azərbaycan rəhbərliyinə yenidən qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni həyatında, beynəlxalq əlaqələr məkanında nəzərəçarpan dönüş yarandı: “Elmi əsaslara, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil siyasi inkişaf dövlətimizin möhkəmləndirilməsində, sivil dünyaya sıx inteqrasiya prosesinə qoşulmasında və xalqımızın strateji mənafelərini təmin edən modern cəmiyyətin qurulmasında həlledici rol oynadı”.

Tədbirdə rayon Ağsaqqallar Şurasının sədri Vaqif Məhərrəmov, ərazi ilk partiya təşkilat sədrləri Nəriman Əsədov və Əsəd Əsədov çıxış ediblər. Bildirilib ki, Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı Azərbaycanın müstəqil həyatının yeni səhifələrini yazdı. 15 iyun tariximizə Milli Qurtuluş Günü kimi daxil oldu və dövlətçiliyimizi yox olmaq təhlükəsindən qurtardı.

Tədbirin sonunda Yeni Azərbaycan Partiyasının sıralarına yeni daxil olmuş həkim-kordioloq Rasim Məhərrəmova YAP-ın üzvlük vəsiqəsi təqdim olunub.

**ZÜMRÜD BAYRAMOVA**

# Xalqın xilas tarixi

*YAP Samux rayon təşkilatı 15 İyun Milli Qurtuluş Gününü qeyd edib*



Dünən YAP Samux rayon təşkilatında 15 İyun Milli Qurtuluş Gününə həsr edilmiş dəyirmi masa keçirilib. Dəyirmi masanı giriş sözü ilə açan YAP Samux rayon təşkilatının sədri Gündüz Bayramov Azərbaycan xalqının tarixinə Milli Qurtuluş Günü kimi daxil olan 1993-cü ilin 15 iyunundan 26 il keçdiyini xatırladaraq, bu illərin ölkəmizin və xalqımızın həyatında böyük dəyişikliklərlə yadda qaldığını vurğulayıb. G.Bayramov bildirib ki, Ulu Öndər Heydər Əliyev tarix baxımından, çox qısa müddətdə, milli dövlətçiliyin sarsılmaz əsaslarını yaratmağa, Azərbaycanın müstəqilliyinin əbədi və dönməz xarakter almasına nail olub.

Tədbirdə YAP Samux rayon təşkilatının qadınlar şurasını sədri Kəmalə Xəlilova, rayon təşkilatının gənclər birliyinin sədri Qurban Həsənov çıxış edərək, Ulu Öndər Heydər Əliyevin xilaskarlıq missiyasından danışıb, Milli Qurtuluş Gününü Azərbaycanın müstəqillik tarixinin ən şərəfli səhifələrindən biri kimi qiymətləndiriblər. Bildiriblər ki, bu tarixi gün, eyni zamanda, Azərbaycanın dünya birliyinə qovuşması, dünya dövlətləri tərəfindən tanınması və beynəlxalq aləmdə layiqli yerini tutması ilə səciyyələnir.

Dəyirmi masada çıxış edən partiya üzvlərindən Şəmistan Yusifov, Gülağa Hüseynov, Gəray Bayramov, Azər Əhmədov və digərləri 15 İyun Milli Qurtuluş Gününün tarixi əhəmiyyətindən, Ulu Öndər Heydər Əliyevin Vətəni və xalqı qarşısında əvəzolunmaz xidmətlərindən danışıb, Prezident İlham Əliyevin Ümummilli Liderin siyasi xəttini layiqincə davam etdirdiyini diqqətə çatdırıblar.

**R.HÜSEYNOVA**

# Neft Daşlarında 15 İyun Milli Qurtuluş Günü qürurla qeyd olundu





***Dünən Pirallahı rayon icra hakimiyyəti və Yeni Azərbaycan Partiyası Pirallahı rayon təşkilatının birgə təşkilatçılığı ilə 15 İyun Milli Qurtuluş Günü ilə bağlı Neft Daşları qəsəbəsində bayram tədbiri keçirilib. Öncə, tədbir iştirakçıları Neft Daşlarında Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzüblər.***

Tədbir Mədəniyyət Sarayında öz işini davam etdirib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib və "SƏS" TV-nin hazırladığı "Milli qurtuluşdan intibaha" adlı sənədli filmi nümayiş olunub.

Sonra tədbirin rəsmi hissəsini açıq elan edən YAP Pirallahı rayon təşkilatının sədri Hikmət Şikarov çıxışında qeyd etdi ki, xalqımızın müstəqillik tarixində müstəsna yeri olan 15 İyun Milli Qurtuluş Günü ilə ölkəmizin həyatında yeni dövr başlanmış, dövlətçiliyimizin möhkəmlənməsi, müstəqilliyimizin dönməz və əbədi olması üçün mühüm və səmərəli fəaliyyətin əsası qoyulmuşdur. "Xalqımızın tarixi yaddaşına əbədi həkk olunmuş qurtuluş bayramı ölkəmizin hər yerində dahi lider, ölməz şəxsiyyət Heydər Əliyevə dərin hörmət və məhəbbətlə, Onun xalqa göstərdiyi təmənnasız və fədakar xidmətinə böyük minnətdarlıq hissi ilə qeyd olunur" deyə qeyd edən Hikmət Şikarov bildirib ki, Ümummilli Lider Heydər Əliyev 1993-cü il iyunun 15-də Azərbaycanın siyasi hakimiyyətinə gəlməsəydi, indi, ümumiyyətlə, nə Azərbaycandan, nə də ölkəmizdəki bugünkü əmin-amanlıqdan və inkişafdan danışmaq olmazdı: "Bildiyiniz kimi, 1990-cı illərin əvvəlində respublikada vəziyyət çox ağır idi. Ölkədə xaos, anarxiya, özbaşınalıq hökm sürür, böhran yaşanırdı. Silahlı qüvvələrin torpaqlamızın deyil, ayrı-ayrı qrupların maraqlarının müdafiəçisinə çevrilməsi ərazilərimizin biri-birinin ardınca işğalına səbəb olurdu. Məhz belə bir ağır zamanda xalqın israrlı tələbi ilə Bakıya gələn Ulu Öndər Ali Sovetin Sədri kimi fəaliyyətə başladığı ilk aylarda atdığı müdrik addımlar sayəsində, qısa müddət ərzində, vətəndaş müharibəsi və ölkəmizin parçalanmaq təhlükəsinin qarşısını aldı, hakimiyyəti qeyri-qanuni ələ keçirməyə cəhd göstərən cinayətkar qüvvələri xalqın dəstəyi ilə zərərsizləşdirdi. Milli Qurtuluş Gününün dövlətimizin həmin dövrdə düşdüyü xaosdan xilas olduğu gün kimi qeyd etdi". "Azadlıq, müstəqillik hər bir xalq, dövlət üçün ən müqəddəs nemətdir. Azərbaycan xalqı öz azadlığı və müstəqilliyi uğrunda illərlə mübarizə apararaq, bu yolda minlərlə şəhid verib. Ulu Öndər Heydər Əliyevin "Müstəqilliyin əldə olunması nə qədər çətindirsə, onun saxlanılması, daimi və əbədi olması bundan da çətindir" tezisi hər bir dövr üçün öz aktuallığını qoruyur, birliyə və həmrəyliyə bir çağırış kimi önə çəkilir. Bu baxımdan, Azərbaycanın müasir tarixinin iki önəmli hadisələrindən biri Azərbaycanın dövlət müstəqilliyinin yenidən bərpa edilməsi və Ulu Öndər Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı xüsusi vurğulanmalıdır" - deyə Hikmət Şikarov çıxışında vurğulayıb.

Çıxış edən Milli Məclisin Əmək və Sosial Siyasət Komitəsinin sədr müavini, millət vəkili Rauf Əliyev çıxış edərək, qeyd etdi ki, Azərbaycan xalqının tarixində elə günlər var ki, həmin günlər Azərbaycan xalqının gələcək taleyinin müəyyən olunmasında böyük başlanğıcların əsasını qoyub. "Tarixi hadisələrlə zəngin belə günlərdən biri 1993-cü ilin 15 iyun tarixidir. Xalqımızın yaddaşına Milli Qurtuluş Günü kimi daxil olan bu gün təqvimdə, sadəcə, bir bayram günü deyil, ictimai, siyasi, tarixi hadisələrlə zəngin bir gündür. Vətənini, xalqını sevən, o dövrün çətin, ağrılı günlərinin dəhşətlərini yaşayan, hadisələri öz gözləri ilə görən insanlar üçün Milli Qurtuluş Günü çox dəyərli və əzizdir" deyə millət vəkili bildirib.

Yeni Azərbaycan Partiyası Yevlax rayon təşkilatının sədri, Milli Məclisin Əmək və Sosial Siyasət Komissiyasının üzvü, Səhiyyə Komitəsinin üzvü, millət vəkili İlham Məmmədov çıxışında qeyd etdi ki, xalqımızın müstəqillik tarixində müstəsna yeri olan "15 İyun Milli Qurtuluş Günü" ölkəmizin həyatında yeni dövr başlanmış, dövlətçiliyimizin möhkəmlənməsi, müstəqilliyimizin dönməz və əbədi olması üçün mühüm və əbədi olması üçün mühüm və səmərəli fəaliyyətin əsası qoyulmuşdur. "Xalqımızın tarixi yaddaşına əbədi həkk olunmuş Qurtuluş Günü ölkəmizin hər yerində dahi lider, ölməz şəxsiyyət Heydər Əliyevə dərin hörmət və məhəbbətlə, Onun xalqa göstərdiyi təmənnasız və fədakar xidmətinə böyük minnətdarlıq hissi ilə qeyd olunur" deyə millət vəkili vurğulayıb.

Pirallahı RİH başçısının I müavini Vəzir Səfixanov çıxışında qeyd etdi ki, Ümummilli Liderimizin müdrikliyi, dünyada gedən proseslərə dərindən bələd olması, baş verən hadisələrin səbəblərinin təhlili zamanı əvəzolunmaz məharət və bacarığı, hadisələrin qarşısının alınması üçün qabaqlayıcı tədbirlər görmək səriştəsi öz bəhrəsini verdi və dahi şəxsiyyətin Bakıya gəlişindən bir neçə ay sonra ölkədə siyasi sabitlik yaradıldı: "Bu isə, hüquqi dövlət quruculuğu sahəsində atılması vacib olan ilk addımlardan idi. Çünki ölkənin gələcək hüquqi inkişafı məhz sabitliyə əsaslanırdı. Belə çətin məqamda Ulu Öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı, doğrudan da, xalqımızın ən ağır problemlərdən, çətinliklərdən, faciələrdən Qurtuluşu oldu".

Azərbaycanın Milli Qəhrəmanı Bəxtiyar Allahverdiyev Ulu Öndər Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışından sonra Milli Ordu quruculuğu sahəsində apardığı islahatlardan, cəbhə xəttində ordumuzun vətənpərvərlik ruhunun yüksəlməsini öz çıxışında qeyd etdi.

Neft Daşları NQÇİ-nin rəisi, YAP Pirallahı rayon təşkilatı sədrinin müavini Qoçalı Mahmudov Ulu Öndərin ikinci dəfə hakimiyyətə qayıdışından sonra neft sənayemizin inkişafı haqqında danışdı. Tədbirin təşkilinə görə, Pirallahı rayon icra hakimiyyəti, Yeni Azərbaycan Partiyası Pirallahı rayon təşkilatına və qonaqlara öz təşəkkürünü bildirdi. Sonra bir qrup YAP Pirallahı rayon təşkilatı Neft Daşları ərazi ilk partiya təşkilatının fəallarına Fəxri Fərmanlar təqdim olundu. Bayram tədbiri respublikanın tanınmış incəsənət nümayəndələrinin iştirakı ilə davam etdi, respublikamızın xalq artisti Bilal Əliyev, əməkdar artist Gülüstan Əliyeva, gənc xanəndə Nisbət Sədrayeva və AzTV-nin solisti Taleh Yəhyayevin ifaları tədbir iştirakçıları tərəfindən böyük coşqu ilə qarşılandı.

***Rövşən RƏSULOV***

# Oğuz rayonunda İmadəddin Nəsiminin anadan olmasının 650 illiyinə həsr olunmuş bədii qiraət müsabiqəsi keçirilib

***Yeni Azərbaycan Partiyası Oğuz rayon təşkilatının və Oğuz Rayon Təhsil Şöbəsinin birgə təhkilatçılığı ilə tədbirlər planına uyğun olaraq, Emin Abdullayev adına şəhər 2 nömrəli tam orta məktəbdə dahi Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyinə həsr edilən bədii qiraət müsabiqəsinin I mərhələsi keçirilib.***



YAP Oğuz rayon təşkilatının sədri Saleh Məhərrəmov, Oğuz Rayon Təhsil Şöbəsinin müdiri Elçin Kərimov müsabiqənin açılış mərasimində çıxış edərək, iştirakçılara uğurlar diləyiblər. Qeyd olunub ki, Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyi münasibətilə 2019-cu ilin "Nəsimi İli" elan edilməsi haqqında Sərəncamı ölkəmizin mədəni həyatında əlamətdar hadisəyə çevrilib. Bu Sərəncam dövlət başçısının bədii sözə və ədəbiyyatımıza, incəsənət və mədəniyyətimizə verdiyi böyük dəyər və qayğının daha bir nümunəsidir. Dövlət başçısının müvafiq Sərəncamına əsasən, Nəsiminin 650 illik yubileyinin dövlət səviyyəsində qeyd olunması ölkədə milli mədəniyyətə və incəsənətə yüksək səviyyədə münasibətin göstəricisidir. Ölkə ictimaiyyəti "Nəsimi İli" çərçivəsində milli-mənəvi dəyərlər silsiləsinin Nəsimi irsini bütün platformalarda müzakirə edir və geniş səpkidə tədbirlər reallaşır.

Tədbirdə məlumat verilib ki, rayonun 28 ümumtəhsil məktəbindən 31 istedadlı uşaq müsabiqənin birinci mərhələsində iştirak edib. Təşkilat Komitəsinin qərarına əsasən, 8 nəfər istedadlı gənc müsabiqənin 18 iyun 2019-cu il tarixdə keçiriləcək II mərhələsində iştirak etmək hüququ qazanıb.

***ZÜMRÜD BAYRAMOVA***

# Həyasızlıq simvolu...

## Və yaxud Əli Kərimli satqınlıq simvolunun yanına həyasızlıq simvolunu da qatdı

***Son günlər dağıdıcı müxalifət düşərgəsində "söyüş siyasətçiləri"nin özlərini "siyasi lider" adlandırmalarını eşitdikdə, artıq susmaq istəmirsən. Bu qədər də həyasızlıq olar? AXCP sədri deyir ki, olar. Təəccüb də etmirəm. Çünki bütün əxlaqi keyfiyyətlərdən uzaq olan, satıb-satılan, mənəviyyat deyilən milli xüsusiyyətlərin nə demək olduğunu anlamayan və bu tərbiyəsizliyi ilə küçük Türkel kimi erməniyə nökərçilik edən satqın yetişdirən Vətən xainindən nə gözləmək olar? Ə.Kərimli 15 İyun Qurtuluş Günü ərəfəsi, yenə başlayıb sosial şəbəkələrdə çıxışlar etməyə. "Mənim kitabımda qaçmaq yoxdur" deyən "Yurd" rəhbərinə yaddaş dərsi "keçir".***

Görünür, Ə.Kərimli cəmiyyətin yaxın keçmişini unutmayıb və tarix heç vaxt unudulmur və dəyişmir. Bir daha sənin kitabında qaçmaq, xəyanət və fərarilik daim olub, Ə.Kərimli.

### Əli Kərimli həyat yolunun fərarilik faktoru

1990-cı ilin 20 yanvar günü: Rus əsgərləri və 25 yaşlı Kərimovun "itən" vəsiqəsi. İlk fərarilik faktı 1990-cı ilin 20 yanvar günündə baş verənlərlə bağlıdır. Həmin gecə baş verənlər haqda Kərimlinin tələbə və "Yurd"çu yoldaşlarından birinin xatirəsini olduğu kimi təqdim edirik: "Rəhim Qazıyev, Nemət Pənahlı və Ə.Kərimli "Leytenant Şmit" zavodunda yaradılan Müdafiə Komitəsinin üzvü idilər. Onlar 20 yanvarda SSRİ ordusunun Bakıya daxil olmasının qarşısını almalı, şəhərin giriş-çıxışında qurulan barrikadalara bir növ nəzarət etməli idilər. 20 yanvarın səhəri gün biz tələbə yoldaşlarımızla maraqlandırdıq. Baxdıq ki, Ə.Kərimli yoxdur. Yanvarın 21-də Ə.Kərimli meydana çıxdı. Ona yataqxanada sual etdim ki, 20 yanvarda harada idin? Çünki həmin vaxt Kərimlinin Müdafiə Komitəsinin üzvü olduğuna dair vəsiqəsi "Krasnaya Zvezda" qəzetində çap olunmuşdu. Qəzetin Moskvada çap olunduğunu nəzərə alsaq, bu vəsiqənin surətinin sürətlə Moskvaya kim tərəfindən göndərilməsi maraqlı idi. Çünki qəzetdə əsaslandırılırdı ki, o vaxt Bakıda Müdafiə Komitəsi yaradılıb, Ə.Kərimli də onun üzvlərindən biri olub.



### Siyavuş Novruzov: "Əli Kərimlinin yalanlarını faktlarla və şahidlərlə sübut etməyə hazıram. Ə.Kərimli fərari olub""

"Ötən əsrin 90-cı illərində Azərbaycan Dövlət Universitetində (indiki BDU) Ə.Kərimlinin komsomola katib seçilmək üçün dostlarını necə satdığı həmin dövrdə tələbələrin gözü qarşısında olub. Hamı bilir ki, Ə.Kərimli o zaman nə oyunlardan çıxıb və o dövrdəki rektorun, yumşaq dillə desək, "xəbərçi"si olub". Bunu Yeni Azərbaycan Partiyası İcra katibinin müavini, Milli Məclisin deputatı Siyavuş Novruzov deyib.

S.Novruzov bildirib ki, Ə.Kərimlinin guya 90 nəfəri yığıb, orduya getməsi barədə dedikləri tamamilə yalandır: "Tamamilə yalan deyir. Əli Kərimli heç Kür çayından o tərəfə keçməyib. Heç təsadüfi deyil ki, həmin vaxt daxili işlər naziri işləyən İsgəndər Həmidov həmişə onu fərari adlandırırdı. Çünki Ə.Kərimli sovet vaxtında hərbi xidməti həbsxana üzərində duran daxili qoşunların tərkibində keçib. Yəni bu adam, ümumiyyətlə, hərbi hissədə olmayıb, Dağlıq Qarabağın ərazisində və yaxud ona bitişik olan rayonlarda və kəndlərdə heç vaxt olmayıb, həmişə qaçıb gizlənib və vətən naminə əlinə silah almayıb".

S.Novruzov onu da bildirib ki, Ə.Kərimlinin bu əməlləri indi də davam edir: "Kimsə onun fikrinin əleyhinə çıxırsa, söz və fikir azadlığı irəli sürürsə, dərhal həmin şəxs partiya sıralarından xaric olunur. Digər partiya sədrlərinə qarşı da çox kəskin nifrət bəsləyir və altdan-altdan mübarizə aparır, onlar haqqında xoşagəlməz yazılar yazdırır. Yəni bütün hallarda Əli Kərimli öz silahdaşlarını satıb".

### Əli Kərimli - insan, yoxsa iblis!

AXCP sədri Ə.Kərimlinin "siyasi karyerasına" nəzər saldıqca, onun insan yox, iblis olması haqqında fikrə tam əmin olursan. Mərhum Əbülfəz Elçibəyə yaxınlığı ilə seçilən və Ə.Kərimlinin xəyanətlərinə kifayət qədər bələd olan KXCP sədri Mirmahmud Mirəlioğlu "Yurd"un fəaliyyətində baş verən hadisələrə, birmənalı olaraq, "Antielçibəyçilər hərəkatı" adını verib. O, xatırladıb ki, məhz "Yurd" qrupu AXC daxilində fəaliyyətə başlayarkən, AXCP-nin mərhum sədri Elçibəy buna xeyir-dua verməmişdi: "Elçibəyin başlanğıc üçün xeyir-duası olmadığına görə, sonrakı dövrlərdə çox şeylər baş verdi. Bu məsələ Elçibəyin iştirakı ilə keçirilən qurultayda pik nöqtəsinə çatdı. Qurultaydan bir neçə gün sonra ciddi məsələlər çıxdı ortaya. Sonradan isə bəlli oldu ki, fondun pulları, məhz Elçibəyə qarşı təbliğata xərclənib".

KXCP sədri, eyni zamanda, Ə.Kərimlinin iblis olduğunu dönə-dönə vurğulayaraq, bildirib ki, əgər o, iblis deyildisə, AXC daxildə "Yurd" mübarizəsi gedirdi. Ə.Kərimli insanlara "Yurd"a qəbul üçün ərizə yazdırırdı. Görünür, Ə.Kərimlinin xəmiri satqınçılıqla yoğrulub.

Bu yerdə ASDP sədri Araz Əlizadənin dediklərini bir daha xatırlatmaq istərdim: "AXCP tarixində Ə.Kərimli qədər pozuçuluq fəaliyyəti, Ə.Kərimli qədər Elçibəy əleyhinə gedən, bu məsələni təşkilatlanmış, mobil şəkildə təşkil edib, sonunda xəyanət yolu tutan ikinci bir adam olmayıb. Bu, faktdır, tarixdir. Bu, mənim şəxsi mövqeyim deyil. Bu, Ə.Kərimlinin fəaliyyətinin nəticəsi və adıdır".

Göründüyü kimi, Ə.Kərimli zamanında və elə indi də erməni lobbisinə, erməni lobbisinin maliyyələşdirdiyi beynəlxalq təşkilatların pullarına o qədər çox satılıb ki, bu satılmışların sayı-hesabı itib.

***Rəfiqə HÜSEYNOVA***

# Mübariz Əhmədoğlu: "Erməni xalqı Paşinyandan üz çevirir"

***"Abovyan şəhərinin merliyinə keçirilən seçkilərdə Nikol Paşinyan növbəti dəfə məğlub oldu. Bəlkə də bu, onun belə 4-cü məğlubiyyəti idi. Özü birbaşa seçki kampaniyasına qatıldı, əhalini öz namizədinə səs verməyə çağırdı. Amma əhali onun dediyinə riayət etmədi və fəaliyyətdə olan Abovyan şəhərinin meri qələbə çaldı". Bunu politoloq Mübariz Əhmədoğlu deyib. Onun sözlərinə görə, sonradan N.Paşinyan bunu demokratiyanın qələbəsi kimi dəyərləndirdi: "Səsvermədən bir neçə gün öncə və səsvermə günü baş verənlər göstərdi ki, Abovyanda baş verənlərin demokratiya ilə zərrə qədər də əlaqəsi yoxdur. Polis tam gücü ilə "Mənim Addımım" blokundan irəli sürülən namizədin rəqibinə qarşı, yəni fəaliyyətdə olan merə qarşı işlədi, hətta tərəfdarları həbs olundu, özü saxlanıldı".***

Politoloq, həmçinin, vurğulayıb ki, bir neçə ay öncə, Sünikdə də eyni belə vəziyyət yaranmışdı: "Orada N.Paşinyan yaranmış vəziyyətin 4 izahını verdi. İndi getdikcə verdiyi izahların sayı da azalır. N.Paşinyanın xalq qarşısında nüfuzunu itirməsinin digər əlaməti, artıq Ermənistanda ondan reytinqli siyasətçinin meydana çıxmasıdır. "Gallup Armeniya"nın keçirdiyi rəy sorğusuna görə, prezident Armen Sarkisyan Nikol Paşinyandan daha



üstün reytinqə malikdir. Söz yox "Gallup Armeniya" N.Paşinyana da hədsiz böyük rəqəm yazmışdı - 81 faiz, amma A.Sarkisyana 85 faiz səs yazmışdı".

M.Əhmədoğlunun fikrincə, N.Paşinyanın əhalinin dəstəyini itirməsi gözlənilən idi, çünki verdiyi vədlərin heç birisini yerinə yetirməyib, bu, bir tərəfə: "Eyni zamanda da, Ermənistandan xeyli vacib iş adamlarını qovub. Amma ən əsası isə, "məxməri inqilab" mitinqin ümumi ruhuna xəyanət etdi. Əhali N.Paşinyanı hakimiyyətə gətirəndə, onu Dağlıq Qarabağ məsələsindəki mövqeyinə görə dəstəkləyirdi. O, uzun müddət Levon Ter-Petrosyanın tərəfdarı olmuşdu, heç vaxt Dağlıq Qarabağ məsələsində konkret millətçi mövqedən çıxış etməmişdi. Məhz buna görə də, ona dəstək veriblər. İndi də əhalinin bu mövqeyini inkar edir. Təbii ki, hadisələrin belə gedişi Ermənistandakı vəziyyətin aylarla ölçülən müddətdə kəskinləşəcəyini deməyə əsas verir".

***R.HÜSEYNOVA***

# "Həmsədrlərin separatçılarla görüşü yanlış mövqedir"

***"Son baş verənlər bir daha sübut etdi ki, Paşinyan danışıqlara getmək istəmir. Bəhanə kimi də separatçı rejimin danışılqrda iştirak etməsini irəli sürür". Bu fikirləri SİA-ya açıqlamasında politoloq Qabil Hüseynli deyib. O bildirib ki, Ermənistanın baş nazirinin iddiasına görə, danışıqların müzakirə mövzusu işğal altında olan torpaqların geri qaytarılması məsələsi olduğu üçün həmin torpaqlar da məhz separatçı qüvvələr tərəfindən ələ keçirildiyi üçün problemin həlli istiqamətində aparılan müzakirələrdə qondarma rejim də iştirak etməlidir: "Təbii ki, Azərbaycan tərəfi haqlı olaraq buna imkan vermir və bu baxımdan da düşmən tərəf müxtəlif təxribatlar törətməklə danışıqlar prosesində konstruktiv nəticənin əldə edilməsinə imkan vermir". Ermənistanda Paşinyana qarşı etirazların edildiyini xatırladdan politoloq söyləyib ki, düzdür bu kütləvi xarakkter daşımasa da baş nazirin verdiyi vədlərə əməl etməməsi narazılıqlar yaradır: "Artıq Paşinyanın ölkəni idarə edə bilməməsi ilə bağlı fikirlər də yetişməkdədir. Payız və qış aylarında Paşinyana xalq tərəfindən böyük tələblərin irəli sürüləcəyi istisna deyil".***



Q.Hüseynli qeyd edib ki, Ermənistan tərəfindən atılan addımlar göstərir ki, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində aparılan danışıqlar yaxın gələcəkdə nəticə verməyəcək: "Bu səbəbdən də danışıqlar prosesinə qədər Azərbaycan ordusu erməni ordusuna ən azından lokal xarakkterli dərs verməlidir. Erməni tərəfinə diplomatiya dərsi ilə yanaşı hərbi dərs də verilməlidir ki, onlar öz qəlibləri̇ndə otursunlar". Baş verənlər fonunda ATƏT-in Minsk qrupu həmsədrlərinin separatçılarla görüşünə gəlincə politoloq bunun yanlış mövqe olduğunu dilə gətirib: "Zənnimcə, həmsədrlərin separatçılarla görüşməsi Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı aparılan danışıqlara qondarma rejimin də cəlb edilməsi məsələsinə presedent yaratmaq cəhdidir".

# Müxalif trollar məkrli planların icraçılarıdır

## “Müxalif şəxslərin bu cür hərəkətlərə əl atmaları iyrənclik, Azərbaycan dövlətinə və xalqına qarşı yönəlmiş şərəfsizlikləridir”

***Son vaxtlar “Milli Şura”, AXCP və Müsavat sosial şəbəkələrdə Azərbaycan atributlarını təhqir edən, milli hissiyyata toxunan video-görüntülər yayır, şər və böhtan xarakterli məlumatlar paylaşırlar. Bütün bunlar, bir daha təsdiq edir ki, bu şəxslər müstəqil deyillər, onları xarici anti-Azərbaycan qüvvələr təlimatlandırırlar. Söhbət etdiyimiz müsahiblərimiz də, müxalif başbilənlərin və onların trollarının qarayaxma kampaniyalarının arxasında məkrli xarici dairələrin dayandıqlarını bildirdilər.***



### AMİP funksioneri Əli Orucov: “Bu, mənəvi terrordur”

- Elə rəmzlər var ki, onlar müqəddəs və toxunulmazdır. İstər mənəvi, istər hüquqi baxımdan yanaşılsa, dövlət atributlarına qarşı hansısa həqarət və aşağılamalar qadağandır. Bu atributlar uğrunda şəhidlər vermişik, hər cür məşəqqətlərə və faciələrə sinə gərilib, xalqın və dövlətin varlığının ifadəsinə rəvac verib. Siyasi mübarizədə nə qədər radikallıq və barışmazlıq olsa da, dövlət rəmzlərimiz hədəf seçilməməlidir. Dövləti və xalqı təmsil edən ali dövlət rəhbəri təhqirlərə məruz qoyulmamalıdır. Təəssüflər olsun ki, belə xoşagəlməz hallara yol verilir. Halbuki insan şəxsiyyəti bütün mübarizələrin fövqündə dayanmalıdır. O da təəssüf doğurur ki, sosial şəbəkələrdə insanın şərəf və ləyaqətini alçaldan ən ağır söyüşlərdən belə çəkinmirlər. Bu özü mənəvi terrordur. Bu terrora son qoyulmalıdır.

### “Azadlıq Hərəkatçılar Birliyi”nin sədri Təhmasib Novruzov: “Xalq müxalifətin xarici maraqlı dairələrin əlində alət olduğunu bilir”

- Təbii ki, təkcə indi deyil, artıq uzun illərdi ki, biz müxalifət düşərgəsini təmsil edən şəxslərin Azərbaycan atributlarını təhqir edən, milli hissiyyata toxunan şər və böhtan xarakterli məlumatları yaymaqlarının şahidi oluruq. Azərbaycanda gedən inkişafdan, müsbət dəyişikliklərdən sanki bu adamların xəbəri yoxdur. Sanki bu adamlar Ayda, Marsda yaşayırlar və Azərbaycanda gedən bu proseslərdən məlumatsızdırlar. Ancaq və ancaq xaricdən verilən sifarişlərə istinad edərək, Azərbaycan haqqında mənfi rəy formalaşdırmağa çalışırlar. Birmənalı şəkildə, demək olar ki, Azərbaycan cəmiyyəti üçün adları çəkilən bu şəxslərin dedikləri fikirlərin əhəmiyyəti yoxdur. Çünki xalq müxalifətin xarici maraqlı dairələrin əlində alət olduğunu bilir. Bu baxımdan, bunların nə etmələrindən və nə istəmələrindən asılı olmayaraq, heç vaxt onların Azərbaycan dövləti ilə bağlı məkrli planları baş tutmayacaqdır. Sadəcə olaraq, müxalif şəxslərin bu cür hərəkətlərə əl atmaları iyrənclik, Azərbaycan dövlətinə və



xalqına qarşı yönəlmiş şərəfsizlikləridir.

### AGAAMC-nın sədri, fəlsəfə doktoru, İlqar Orucov: “Müxalifət hər şeyi qara rəngdə təqdim etmək tapşırığı alıb”

- Təəssüf ki, yaradılan imkanlardan sui-istifadə edən bir qrup başıpozuq dəstə davamlı şəkildə dövlətə, onun ali rəhbərliyinə, milli atributlarımıza qarşı iyrənc kampaniyalarını davam etdirməkdədirlər. Müəyyən xarici güclərin və daxildəki radikal siyasi qrupların, xüsusilə, “Milli Şura”, AXCP və Müsavat kimi heç bir siyasi etika gözləməyən qüvvələrin Azərbaycan hakimiyyətinə, bəzən, bütövlükdə Azərbaycan dövlətinə qarşı, davamlı olaraq, iyrənc kampaniya aparmaları, onu göstərir ki, bütün bu kimi kampaniyalar eyni mərkəzdən idarə olunur. Maraqlıdır ki, müxalifət bütün dəyərləri heçə endirərək, hədəf kimi, sanki hər şeyi qara rəngdə təqdim etmək tapşırığı alıb. Bu üfunəti hiss etmək üçün onların sosial şəbəkələrdə idarə etdikləri səhifələrə nəzər salmaq kifayət edir. Deməli, siyasi səhnədə uğursuzluqlarını həzm edə bilməyən bu qüvvələr xaricdəki milli xainlərlə eyni mərkəzdən təlimat və tapşırıq alırlar. Xalqın etimadını qazana bilməməyin acığını bu üsulla çıxmağa çalışırlar. Azərbaycana heç bir aidiyyatı olmayan şəkilləri paylaşaraq, guya hadisələrin ölkəmizdə baş verdiyini iddia etmək hansı siyasi etikaya sığışar? Türkiyə mətbuatında mənbəyi bəlli bir materialın, konkret şəhid atasının şəklini azərbaycanlı şəhid atası adı ilə vermək nə məqsəd daşıyır? Montaj edərək, bunu cəmiyyətə təqdim etmək hansı çirkin məqsədə xidmət edir? Hər bir vətəndaşımız üçün şəhid adı, şəhid atası və şəhid valideyni müqəddəsdir. Azərbaycanın siyasi rəhbərliyinin də şəhid adına münasibəti hamımıza bəllidir. O zaman hansısa bir ölkədəki şəkli montaj edərək, guya bizim ölkəmizdə şəhid atasının şəkli kimi təqdim etmək və həm də hörmətsiz formada təqdim etmək, təkcə hakimiyyətə qarşı deyil, müqəddəs şəhid adına, dövlətimizə və xalqımıza qarşı təhqirdir. Sual olunur: siyasi mübarizə aparmaq iddiasında olan adamlar nəyə görə söyüş və təhqir kimi xalqımızın milli dəyərləri ilə bir araya sığmayan bir üsuldan istifadə etsinlər? Nədən milli atributlarımız, milli heysiyyata toxunan məqamlar təhqirin hədəfi olmalıdır? Çünki bu qüvvələri idarə edən mərkəzlər xalqımızın psixologiyasına yaxşı bələddirlər və söyüşün və təhqirin hər bir azərbaycanlıda yaratdığı effekti yaxşı bilirlər. Tutaq ki, rus cəmiyyəti üçün söyüş adı məişət ifadəsi, leksikonda formalaşmış və cəmiyyətdə normal qəbul edilən ünsiyyətin tərkib hissəsidirsə, Azərbaycan cəmiyyətində, birmənalı olaraq, qəbul edilməyən, ayıb bilinən, milli dəyərlərlə uyğun gəlməyən hərəkətdir. Ona görə də, yeni informasiya selinin dağıdıcı təsiri ilə Azərbaycanın siyasi hə-



yatına müdaxilə etmək, sosial baza yaratmaq və nəticədə, uğur qazanmaq mümkünsüzdür. Azərbaycan cəmiyyəti xeyli dərəcədə müdrik, savadlı və eyni zamanda, milli köklərə bağlı, formalaşmış və genetik kodlarla, artıq qanımıza hopmuş milli dəyərlərə hörmət edən bir toplumdur. Heç bir zaman bizim cəmiyyətimiz söyüş söyəni, təhqir edəni qəhrəman kimi qəbul etməyib və etməyəcək də. Xalqımızın qan yaddaşında qəhrəmanlığı xarakterizə edən formalaşmış bir etalon, bir sistem mövcuddur və o sistemin heç bir elementində söyüş və təhqir yoxdur.

**GÜLYANƏ**

# Bakcell gənclərin karyera və məşğulluq imkanlarını artırır

Azərbaycanın İlk Mobil Operatoru və Ən Sürətli Mobil İnternet Provayderi Bakcell şirkəti Təhsil Nazirliyi və Gənclər və İdman Nazirliyinin dəstəyi, UNEC-in təşkilatçılığı ilə “Gənclər üçün Əmək Yarmarkası - 2019” tədbirinə qatılıb.



Çoxsaylı tələbə, magistr və məzunların, dövlət qurumları, yerli və xarici şirkətlərin iştirak etdiyi əmək yarmarkasının əsas məqsədi Azərbaycan gənclərinin məşğulluğunun təmin edilməsinə dəstək göstərməkdir.

Əmək yarmarkası zamanı gənclərə Bakcell şirkətində mövcud olan vakansiya və təcrübə imkanları barədə ətraflı məlumat verilib və potensial namizədlərlə müsahibələr keçirilib. Ölkənin qeyri-neft sektorunun ən iri investorlarından olan Bakcell şirkəti gənclərin təhsilinin və karyerasının inkişafına mütəmadi olaraq dəstək göstərir. Şirkət mütəmadi olaraq müxtəlif təhsil müəssisələri, dövlət qurumları və digər təşkilatlar tərəfindən təşkil olunan karyera sərgilərində fəal iştirak edir. Müsahibədən uğurla keçən gənclər ölkənin ən böyük və ən innovativ şirkətlərindən birində iş və ya təcrübə imkanı qazanır.

## Yardımlı sakinindən 6 kiloqramdan çox tiryək götürülüb



Daxili işlər orqanları narkotik maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə tədbirlərini davam etdirirlər. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Yardımlı Rayon Polis Şöbəsi əməkdaşlarının əldə edilmiş məlumat əsasında keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində şəhər sakini, əvvəllər məhkum olunmuş E.Miranovdan 6 kiloqram 120 qram tiryək götürülüb.

Sumqayıt Şəhər Polis İdarəsi əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində isə şəhər sakinləri, əvvəllər məhkum olunmuş İ.Manafovdan 500 qramadək, İ.Məlikovdan isə 420 qram marixuana aşkarlanıb. Faktlarla bağlı araşdırmalar davam etdirilir.

## Evlərdən oğurluq edən şəxslər tutulub

Bu il aprelin 19-da Binəqədi rayon ərazisində “Priora” markalı avtomobilin dörd təkər üzlüyünü oğurlamaqda şübhəli bilinən Bakı şəhər sakini Y.İmanov Binəqədi Rayon Polis İdarəsinin 4-cü polis şöbəsi əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində saxlanılıb.

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, aparılmış tədbirlərlə onun üç evdən məişət əşyaları və inşaat materialları oğurlaması da müəyyən edilib.

Lənkəran Şəhər Rayon Polis Şöbəsi əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində isə rayon ərazisindəki iki həyətyanı sahədən təmir-tikinti alətləri və məişət əşyaları oğurlamaqda şübhəli bilinən Liman şəhər sakinləri R.Muradlı və N.Alışzadə saxlanılıblar. Ətraflarında aparılmış tədbirlərlə onların cari ilin mart-may ayları ərzində daha iki həyətyanı sahədən məişət əşyaları və avtomobil üçün ehtiyat hissələri oğurlamaları da müəyyən olunub. Faktlarla bağlı araşdırmalar davam etdirilir.

# Azərbaycanda gender bərabərliyi

***Azərbaycanda gender bərabərliyi yanlız siyasi hadisə kimi deyil, həmçinin, bir mədəniyyət hadisəsi kimi azərbaycanlıların ictimai şüurunda yer tutub. Bu, Azərbaycanın XX əsrdə modernləşmə və gender bərabərliyi sahəsində əldə etdiyi uğurlarla bağlıdır. Ümummilli Lider Heydər Əliyev bu barədə belə demişdir: "XX əsr Azərbaycan qadınlarının da həyatında çox əlamətdar olmuşdur. Əsrin əvvəllərində Azərbaycanda baş vermiş ictimai-siyasi proseslər, neft sənayesinin intensiv inkişafı qadınların maariflənməsində və ictimai həyatda iştirakına güclü impuls vermişdir. XX əsrin əvvələrində, görülmüş tədbirlər nəticəsində, qadınların hərtərəfli inkişafı üçün geniş üfüqlər açılmışdır. Qısa müddət ərzində, qadınlar arasında savadsızlıq aradan qaldırılmış, onların təhsil səviyyəsi sürətlə yüksəlmişdir. Qadınlar pedaqoq, həkim, mühəndis və digər peşələrə sahib olmuş, təhsil, elm və mədəniyyət sahəsində kişilərlə yanaşı, ləyaqətlə təmsil olunmuşlar".***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev gender bərabərliyi barədə bunları deyib: "Gender bərabərliyi müasir dövrdə demokratik cəmiyyətin inkişafının və insan hüquqlarının qorunmasının əsas prioritetlərindən birini təşkil edir. Müstəqil Azərbaycan Respublikasında milli qanunvericilik, qadınların hüquq bərabərliyini təmin edərək, hər cür ayrı-seçkiliyin qarşısını almağa xidmət göstərir, gender məsələləri ilə bağlı dövlət siyasəti isə, qadınların bərabər imkanlarının gerçəkləşdirilməsinə yönəlmişdir. Azərbaycan təhsili və səhiyyəsində aparıcı mövqelər tutan qadınlarımız ölkəmizin siyasi, sosial və ictimai həyatının bütün sahələrində fəal iştirak etməklə, real gender bərabərliyinə nail olunması üçün öz qüvvələrini əsirgəmirlər."

Birinci vitse-prezident Mehriban Əliyeva bu barədə deyir: "Bu gün qadınlarımız idarəetmə, hüquq və məhkəmə sistemində təmsil olunur, ölkənin ictimai və siyasi həyatında fəal iştirak edirlər. Onlar ölkə üzrə məktəb müəllimlərinin 71, həkimlərin 61, elmi işçilərin isə 50 faizini təşkil edirlər. Bu yolu Azərbaycan qadını 90 il ərzində keçmişdir. Bütün bunlarla yanaşı, Azərbaycan qadını ailə dəyərlərinin qorunub-saxlanması kimi mühüm bir sahədə də öz layiqli töhfəsini vermişdir. Şərq ilə Qərb dəyərlərini özündə birləşdirən Azərbaycan, beləliklə, gender məsələsində də nümunə ola bilər."

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin (AQUPDK) sədri Hicran Hüseynova Azərbaycanda erkən evlilik faktlarının digər dövlətlərlə müqayisədə çox az olduğunu bildirib və qeyd edib ki, "insanlar özləri erkən nikaha qarşı çıxış etməyincə, rəsmi strukturların apardığı işlərin xeyiri olmayacaq."

Azərbaycanda erkən evliliklə bağlı Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi (AQUPDK), Dövlət Statistika Komitəsi (DSK), gender problemləri ilə əlaqədar olan bir çox QHT-lər, problemi elmi müstəvidə araşdıran elmi idarələr (xüsusilə, AMEA-nın Fəlsəfə İnstitutu), gender və insan hüquqları ilə bağlı beynəlxalq təşkilatlar (UNICEF), əsərlərindən yararlandığımız Azərbaycanın dəyərli tədqiqatçıları (ədəbiyyat siyahısında olan) tərəfindən təqdim olunan elmi araşdırmalar, statistik məlumatlar ölkədə müvafiq problemlə bağlı mənzərəni görməyə müəyyən qədər imkan yaradır.

R.Məmmədov yazır: "Erkən evlilik, bütün dünya üçün aktuallıq kəsb edən mühüm bir məsələdir. Çünki yetkinlik yaşına çatmamış ərə gedən qızlar normal tibbi xidmət almaq, təhsil almaq, işləmək, sərbəst hərəkət və seçim etmək hüququndan məhrum olurlar. Erkən evliliklər cəmiyyətdə yoxsulluğun və savadsızlığın artmasına, iqtisadi tənəzzülə şərait yaradır.

Ailə qurmaq üçün 18 yaş həddi, 1989-cu ildə Uşaq Hüquqlarına Dair Konvensiyada qəbul olunmuşdur. UNİCEF 18 yaşadək rəsmi və ya qeyri-rəsmi bağlanan nikahları gender bərabərliyinin və uşaq hüquqlarının pozulması halı kimi dəyərləndirmişdir.

2013-cü ildə BMT İnsan Hüquqları Şurası uşaq, erkən və məcburi nikahlara qarşı qətnamə qəbul etdi və bu halı, uşaq hüquqlarının pozulması halı kimi dəyərləndirdi. 2014-cü ildə BMT-nin qadınların vəziyyəti barədə qəbul etdiyi sənədə uşaq evliliklərinin ortadan qaldırılması zərurəti bəyan edildi."

Azərbaycan Respublikasının Milli Məclisi 12 iyun 1992-ci ildə "Uşaq Hüquqları Konvensiyası"nı və həmin ildə "Qadınlara qarşı Ayrı-Seçkiliyin Bütün Formalarının Aradan Qaldırılması" haqqında Konvensiya"nı ratifikasiya etmişdir. Azərbaycan, bütün inkişaf etmiş ölkələr kimi nikaha daxil olmaq üçün yetkinlik yaşını 18 olaraq təyin etmişdir.

Milli Məclis 1998-ci ildə "Uşaq Hüquqları haqqında" Qanun qəbul etmişdir. 2012-ci ilin may ayında imzalanmış Prezident Fərmanı uşaq hüquqlarının müdafiəsi üçün məsul olan müxtəlif dövlət qurumlarının rolu və məsuliyyətini müəyyən etmiş və məsələnin tənzimlənməsi üçün Ali Şura təsis edilmişdir.

Bir çoxları "erkən nikah" anlayışının əsasında dini kəbinin dayandığını iddia edirlər. Dini kəbin, yalnız şəriət qanunları ilə idarə olunan ölkələrdə hüquqi statusa malikdir. Çünki bu ölkələrdə din dövlətdən ayrı deyil. Yəni onlarda çıxarılan qərarlar həm dinə, həm də dövlətə aiddir. Bu baxımdan, şəriət qanunları ilə idarə olunan ölkələrdə dini kəbinin hüquqi statusu vardır. Çünki o, tərəflər arasında bağlanan nikah müqaviləsinin şərtlərinə və nikaha daxil olan tərəflərin hüquqlarına zəmanət verir.

R.Məmmədov yazır: "Dünyəvi qanunlarla idarə olunan ölkələrdə dini kəbinlərin heç bir hüquqi statusu yoxdur. Nikahın mahiyyəti, ona öz razılıqları ilə daxil olan qadın və kişinin qarşılıqlı vəzifələri, öhdəlikləri və məsuliyyətləri ilə bağlı hüquqlardan ibarətdir. Bu hüquqların təminatına əsas verməyən hər hansı bir müqavilənin "dini kəbin" adlandırılması doğru deyil. Çünki "dini kəbin", bu hüquqları təmin etdiyi təqdirdə, mənəvi-əxlaqi xarakter daşıya bilər. Yaxud bu hüquqları təmin edən hər hansı bir dünyəvi nikah müqaviləsi də dərin mənəvi-əxlaqi keyfiyyətə malikdir. Bu məsələ, insan hüquqları ilə bağlıdır. Onun dini və dünyəvi olaraq, müxtəlif formatlarda təqdim olunmasının heç bir mənası yoxdur. Azərbaycan da, sekulyar dövlət olduğu üçün, burada dini kəbinlər yalnız rəmzi xarakter daşıyır. Bu zərurətdən çıxış edərək, biz, monoqrafiyada "erkən nikah" anlayışını "erkən evlilik" anlayışı ilə əvəz etmişik.

Azərbaycan Ailə Məcəlləsinə görə, 18 yaşdan aşağı olan gənclər arasındakı evlilik qanun pozuntusudur. Lakin bəzi ailə vəziyyətləri ilə bağlı üzürlü səbəblər olduqda (məsələn, onların valideynləri ağır, ölümcül xəstə olduqda, qız hamilə olduqda və s.), nikaha daxil olmaq istəyən və nikah yaşına çatmamış şəxslərin yaşadıqları ərazinin müvafiq icra hakimiyyəti orqanı, onların xahişi ilə nikah yaşının bir ildən çox olmayaraq, azaldılmasına (yəni 17 yaşında nikaha daxil olmasına) icazə verə bilər.

Erkən evliliyə daxil olan şəxslər cinayət məsuliyyətinə cəlb olunurlar. Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 152-ci maddəsinə görə, 16 yaşına çatmayan şəxslə cinsi əlaqədə olma və ya seksual xarakterli digər hərəkətlər etmə 3 ilədək azadlıqdan məhrumetmə ilə cəzalandırılır. 176 (1.1)-ci maddəyə görə, qadını nikaha daxil olmağa məcbur etmə 2000 manatdan 3000 manatadək miqdarda cərimə və ya 2 ilədək, 176 (1.2)-ci maddəyə görə, eyni əməllər nikah yaşına çatmayan şəxs barəsində törədildikdə, 3000 manatdan 4000 manatadək miqdarda cərimə və ya 4 ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır. Azərbaycan Cinayət Məcəlləsinə erkən evliliyə məcburetmə maddəsinin əlavə edilməsindən sonra erkən evliliklərin sayında azalma olub."

Niyə, məhz 18 yaş?

Müəllif göstərir ki, şəxsiyyətin yetişməsində əsas rol oynayan tam orta təhsilin (11 illik) yekunlaşması və vətəndaşlıq hüququnun əldə edilməsi, məhz 18 yaşda olur. Müasir hüquqi dövlətlərdə təhsil və vətəndaşlıq kimi mühüm sosial məsələlər cəmiyyətin təməl sistemini təşkil edir və ictimai idarətmə strategiyası bu sistem üzərində bərqərar olur.

Nikah yaşının 18 yaşdan aşağı olması, yalnız ictimai idarəetmə sistemində problemlərin ortaya çıxması ilə məhdudlaşmır. Bu, həmçinin, şəxsiyyətin formalaşmasına mənfi təsir göstərir. Çünki tibbi araşdırmalar göstərir ki, qızların və oğlanların orta fizioloji-psixoloji həddi-büluğ dövrü təqribən 18 yaşdır. Bu yaş həddindən bir qədər əvvəl və ya gec yetkinlik yaşına çatmış gənclər çoxluq təşkil etmirlər. Bu, onların nikaha 18 yaşından əvvəl daxil olmasına əsas vermir. Çünki həddi-bülüğ dövrü yalnız fizioloji-psixoloji amillərlə deyil, həmçinin, təhsilin və vətəndaşlıq hüququnun əldə edilməsi ilə müəyyənləşir. Vətəndaşlıq hüququ olmayan şəxsin nikaha daxil olmaq hüququ yoxdur. Yaxud təhsil almaqdan məhrum olan insanın cəmiyyətdə özünü işlə təmin etmək imkanları xeyli məhduddur. Deməli, erkən evlilik-şəxsiyyətin insan hüquqlarının pozulmasına və onun istismar olunmasına şərait yaradan qeyri-qanuni aktdır.

Azərbaycanda da qeyri-rəsmi evliliklər arasında erkən evliliklərin payı az deyil. Onlar, SSRİ-nin süqutundan sonra kənardan və daxildən gələn sosial-mədəni təsirlərlə artmışdır. Azərbaycanda qanun çərçivəsində və maarifləndirmə istiqamətində aparılan tədbirlər nəticəsində problem xeyli şəkildə ortadan qalxmışdır. Bu sahədə ölkə rəhbərliyinin, AQUPDK-nin, hüquq-mühafizə orqanlarının, bir çox QHT-nin böyük rolu olmuşdur. Lakin problem hələ də mövcuddur. Onun ortadan qaldırılması istiqamətində ictimai fəaliyyətlərin artırılmasına və tənzimlənməsinə ehtiyac var. Bu monoqrafiyanın yazılması da, problemin həlli istiqamətində atılan addımlardan biri kimi dəyərləndirilə bilər.

**VAHİD ÖMƏROV,**
*fəlsəfə üzrə fəlsəfə doktoru*




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# səs

Son səhifə 13 iyun




## “Müstəqillik Qurtuluşdan başlayır”

Dünən YAP Xaçmaz rayon təşkilatı Heydər Əliyev Mərkəzi ilə birgə 15 İyun Qurtuluş Günü ilə bağlı “Müstəqillik Qurtuluşdan başlayır” mövzusunda tədbir keçirib. Tədbir iştirakçıları ilk öncə rayonun mərkəzində ucaldılan Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət edərək, önünə tər çiçəklər düzüblər, xatirəsini ehtiramla anıblar.

Tədbirdə YAP Xaçmaz rayon təşkilatının sədri Nazim Ağayev “Müstəqillik Qurtuluşdan başlayır” mövzusu ilə çıxış edərək bildirib ki, Ulu Öndər Heydər Əliyevin 1993-cü ildə xalqın tələbi ilə böyük siyasətə qayıdışı Azərbaycan tarixində yeni eranın bünövrəsini qoydu: “Bu, elə bir zaman idi ki, Respublikamızda müstəqilliyin yenidən bərpa edilməsinin ilk günlərindən başlayaraq, ölkədə hərc-mərclik, dərəbəylik hökm sürür, xarici dövlətlərin xüsusi xidmət orqanları Azərbaycanda istədikləri sahələrə nüfuz edir və respublikanı parçalamağa cəhd göstərirdilər. Belə bir məqamda, xalqın böyük şəxsiyyət Heydər Əliyevə ehtiyacı var idi. Xalqın təkidi ilə ikinci dəfə hakimiyyətə qayıdan Ümummilli Lider Heydər Əliyev cəmi bir neçə ay ərzində artıq müstəqilliyini itirmək, vətəndaş müharibəsi təhlükəsi qarşısında olan Azərbaycan Respublikasını və onun dövlətçiliyini xilas etdi.

N.Ağayev onu da bildirib ki, bu gün müstəqil Azərbaycana enerjili, intellektual, vətənpərvər, ən əsası isə Dahi Öndər Heydər Əliyev kimi titanik və dahi bir şəxsiyyətin ocağının istisində böyümüş, ərsəyə gəlmiş bir şəxsiyyətin - Prezident İlham Əliyevin rəhbərlik etməsi xalqımızın alın yazısıdır və Prezident İlham Əliyevin Ulu Öndər Heydər Əliyev dövlətçilik irsini uğurla davam etdirəcəyi danılmaz həqiqətdir.

Tədbirdə Xaçmaz rayon icra hakimiyyəti başçısının birinci müavini İlhamə Nəzərova, YAP Xaçmaz rayon təşkilatı gənclər birliyinin sədri Fərid Musayev, gənclər adından Xumar Mikayılova çıxış edərək, Qurtuluşa qədər və Qurtuluşdan sonrakı dövrlər haqqında geniş məlumat verərək, 15 iyun 1993-cü il tarixdən sonrakı dövrdə ölkəmizin inkişafı haqqında əldə etdiyi nailiyyətlər haqqında geniş məlumat verdilər.

**RƏFİQƏ**


### ELAN

“GÜLAY” Açıq Səhmdar Cəmiyyətinin səhmdarlarının nəzərinə!

29 iyul 2019-cu il tarixdə saat 10.00-da “GÜLAY” Açıq Səhmdar Cəmiyyətinin səhmdarlarının ümumi yığıncağı keçiriləcəkdir.

**Gündəlik məsələlər:**

**1.** Cəmiyyətin 2018-ci il üçün illik maliyyə hesabatının təsdiqi;
**2.** Dividendlərin ödənilməsinə dair;
**3.** Digər məsələlər.

Ümumi yığıncaqda bütün səhmdarların iştirakı vacibdir.

Səhmdarlar sənədlərlə tanış olmaq üçün həftənin iş günləri saat 10.00-dan 13.00-dək İdarə Heyətinin sədrinə müraciət edə bilərlər.

Ünvan: Bakı şəhəri, İnşaatçılar prospekti, 31
Əlaqə telefonu: 055 783 97 64

**“GÜLAY” Açıq Səhmdar Cəmiyyətinin ləğvetmə komissiyasının sədri H.Rzayev**

* * *

ADPU-nun Fiziki tərbiyə və GH müəllimliyi ixtisası üzrə IV kurs tələbəsi Həbibzadə Kənan Faiq oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

* * *

Əliyeva Leyla Cəmil qızına Pirallahı, 29-cu məhəllə, bina 14, mənzil 8 ünvana verilmiş qeydiyyat vəsiqəsi ÇIXARIŞ itdiyi üçün etibarsız sayılır.


## YAP Gəncə şəhər təşkilatı gənclər birliyinin V konfransı keçirilib







***Dünən Yeni Azərbaycan Partiyası Gəncə şəhər təşkilatı gənclər birliyinin V hesabat-seçki konfransı keçirilib. Konfrans iştirakçıları əvvəlcə Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edərək, önünə gül dəstələri düzüb və xatirəsini ehtiramla yad ediblər.***

Dövlət Himninin səslləndirilməsi ilə başlanan konfransı giriş sözü ilə açan YAP Gəncə şəhər təşkilatının sədri, millət vəkili Naqif Həmzəyev Yeni Azərbaycan Partiyasının təkcə Azərbaycanın deyil, regionun ən nəhəng, aparıcı siyasi təşkilatı olduğunu diqqətə çatdırıb, partiyanın işində gənclərin rolundan danışıb.

Sonra YAP Gəncə şəhər təşkilatı gənclər birliyinin konfranslararası müddətdə fəaliyyətini əks etdirən videoçarx nümayiş etdirilib.

YAP Gəncə şəhər təşkilatı gənclər birliyinin sədri Yüksəl Məmmədov çıxış edərək, hesabat dövrü ərzində görülən işlər, həyata keçirilən tədbirlər haqqında ətraflı məlumat verib, gənclərin partiyadakı rolundan, onların fəallıqlarından danışıb. Məruzəçi qeyd edib ki, hazırda təşkilatın gənclər birliyi 23 866 nəfər gənci öz sıralarında birləşdirir. Gənc üzvlərimizdən 18 421 nəfəri, yəni 77,1 %-i qadınlar, 15 744 nəfəri, yəni 65,9%-i ali təhsilli gənclərdir.

Konfransda Elnur Həsənov, Orxan Məmmədov, Valeh Əsədov və digərləri çıxış edərək, görülən işlərə münasibət bildiriblər. Gənclər ölkəmizin inkişafı, respublikamızla bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması istiqamətində üzərlərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəlmək üçün səylə çalışdıqlarını söyləyiblər.

Konfransda Gəncə şəhər icra hakimiyyəti başçısının müavini Elnur Rzayev çıxış edərək, hesabat konfransının əlamətdar günə-15 İyun Milli Qurtuluş Gününə təsadüf etdiyini bildirib. Elnur Rzayev qeyd edib ki, müstəqilliyimizin ilk illərində yaranmış ağır vəziyyətdən yalnız Heydər Əliyev kimi dahi bir şəxsiyyət qoruya bilərdi. Bu səbəbdən, Ulu Öndər Heydər Əliyev xalqının səsinə səs verdi və yeni bir siyasi partiyanı - Yeni Azərbaycan Partiyasını yaratdı.

Millət vəkili Pərvin Kərimzadə çıxış edərək, gənclər siyasətinin düzgün həyata keçirilməsi dövlətin cəmiyyətdəki dayaqlarını möhkəmləndirməklə yanaşı, onun həyata keçirməyə çalışdığı dövlət siyasətinin dəstəklənməsinə və müvəffəqiyyətlə həyata keçirilməsinə gətirib çıxardığını bildirib.

Şəhər Gənclər və İdman Baş İdarəsinin rəisi Müşfiq Cəfərov çıxış edərək, Yeni Azərbaycan Partiyasının keçdiyi şərəfli yoldan danışaraq, bugünkü nailiyyətlərimizin və uğurlarımızın əsas səbəbi kimi partiyamızın və onun Sədri, Prezident İlham Əliyevin gərgin əməyinin nəticəsi olduğunu və ölkəmizin inkişafı prosesində gənclərin də yaxından iştirak etdiyini diqqətə çatdırıb.

Konfransda təşkilati məsələlərə baxılıb. YAP Gəncə şəhər təşkilatı gənclər birliyinin 49 nəfərdən ibarət şura və 19 nəfərdən idarə heyətinin tərkibi müəyyənləşib.

Səsvermə nəticəsində, Kamran Abbasov YAP Gəncə şəhər təşkilatı gənclər birliyinin sədri, həmçinin, YAP Gənclər Birliyinin növbəti konfransına nümayəndələr də seçilib.

Sonda konfrans iştirakçıları adından Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevə müraciət qəbul edilib.

**R.RƏSULOV**


*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet “Səs”in komputer mərkəzində yığılır, səhifələnir.
“Azərbaycan” nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**